Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 115

# LEVİLİLƏR

## KİTABI

## GİRİŞ

*«Levililər»* Kitabı İsraillilərin hələ də Sina dağında qalmasını təsvir edir. Bu kitab qədim İsrailin ibadət və dini mərasimlərindən bəhs edir.

Burada həmçinin bu ibadət üçün məsuliyyət daşıyan Levi tayfasından olan Harun və onun oğullarının kahinlik vəzifəsinə təyin olunmasından danışılır.

Allahın müqəddəsliyi və insanların Onunla daima ünsiyyətdə olmaq üçün ibadət etməsinin yolları kitabın əsas mövzusudur. İsa Məsihin ikinci böyük əmr adlandırdığı məşhur sözləri: «Qonşunu özün kimi sev» bu kitabdandır (19:18).

***Kitabın məzmunu:***

1:1-7:38 Təqdim və qurbanlar haqqında qanunlar
8:1-10:20 Harunun və onun oğullarının kahinliyə təyin olunması
11:1-15:33 Paklıq və murdarlıq haqqında qanunlar
16:1-34 Kəffarə günü
17:1-27:34 Təqdisolunma və ibadət haqqında qanunlar

### *Yandırma qurbanı*

1 1Rəbb Musanı Hüzur çadırından
çağırıb belə dedi: 2«İsrail övlad-
larına bəyan et və de: “Sizdən bir nəfər
öz heyvanlarından Rəbbə qurban
gətirəndə qoy qurbanlığı mal-qara
yaxud qoyun-keçi olsun.

3Əgər qurbanı bir baş mal-qaradan
ibarət yandırma qurbanıdırsa, bu
qüsursuz erkək heyvan olsun. Bu
qurbanın Rəbbin hüzurunda məqbul
olması üçün onu gətirən adam onu
Hüzur çadırının girişinə gətirsin. 4O
adam əlini yandırma qurbanının ba-
şına qoysun ki, qurban özü üçün kəf-
farə kimi qəbul olunsun. 5O, buğanı
Rəbbin önündə kəssin. Harun nəslin-
dən olan kahinlər qanı təqdim edərək
Hüzur çadırının girişi yanındakı
qurbangahın hər tərəfinə səpsinlər.
6Sonra o adam yandırma qurbanının
dərisini soyub qurbanı parça-parça
doğrasın. 7Kahin Harunun övladları
qurbangahda od qalayıb üstünə odun
düzsünlər. 8Harun nəslindən olan ka-
hinlər buğanın başını və piyini parça-
parça doğranmış hissələrlə birlikdə
qurbangahın odunları ilə qalanan od
üstünə düzsünlər. 9Qurbanın içalatı və
budlarını isə o adam su ilə yusun.
Kahin bunların hamısını qurbangah-
da tüstülədib yandırsın. Bu, yandırma
qurbanı, Rəbbin xoşuna gələn ətir –
yandırma təqdimidir.

10Əgər kiminsə yandırma qurbanı
qoyun-keçidən ibarətdirsə, qoy bu
qüsursuz erkək heyvan olsun. 11Onu
qurbangahın şimal tərəfində, Rəbbin
önündə kəssin; Harun nəslindən olan

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 116



kahinlər isə heyvanın qanını qurban-
gahın hər tərəfinə səpsinlər. 12Sonra o
adam heyvanı parça-parça doğrasın,
başını və piyini kəssin; xidmət edən
kahin də qurbanı qurbangahın odun-
ları ilə qalanan od üstünə düzsün.
13İçalatı və budları isə o adam su ilə
yusun. Kahin bunların hamısını təq-
dim edib qurbangahda tüstülədib yan-
dırsın. Bu, yandırma qurbanı, Rəbbin
xoşuna gələn ətirli təqdimdir.

14Əgər kiminsə Rəbbə yandırma
qurbanı quşdan ibarətdirsə, qoy qum-
ru quşlarından yaxud göyərçinlərdən
qurban gətirsin. 15Kahin onu qurban-
gaha gətirsin, boynunu üzüb başını
qurbangahda tüstülədib yandırsın;
qanı isə qurbangahın yan tərəfindən
axıdılsın. 16Kahin quşun çinədanını
lələkləri ilə çıxarıb qurbangahın şərq
tərəfinə, küllüyə atsın. 17Sonra o, qa-
nadlarını tutaraq quşu yırtsın, amma
iki yerə bölməsin. Bundan sonra kahin
quşu qurbangahda odunla qalanan od
üstündə tüstülədib yandırsın. Bu, yan-
dırma qurbanı, Rəbbin xoşuna gələn
ətir – yandırma təqdimidir.

### *Taxıl təqdimi*

2 1Kimsə Rəbbə taxıl təqdimi gəti-
rərsə, təqdimi narın un olsun,
üstünə də zeytun yağı töküb kündür[a]
qoysun. 2Onu Harun nəslindən olan
kahinlərə gətirsin. Sonra isə kahin bir
ovuc unla yağ və kündürün hamısını
götürərək qurbangahda xatirə təqdimi
kimi tüstülədib yandırsın. Bu, Rəbbin
xoşuna gələn ətir – yandırma təqdi-
midir. 3Taxıl təqdiminin qalan hissəsi
isə Harunla övladlarına məxsus olsun.
Bu, Rəbb üçün verilən yandırma təq-
dimindən götürüldüyünə görə ən mü-
qəddəsdir.

4Təndirdə bişirilmiş taxıl təqdimi
gətirəndə zeytun yağı ilə narın undan
yoğrulmuş mayasız kökələr və üstünə
zeytun yağı sürtülmüş mayasız qoğal-
lar təqdim et.

5Əgər təqdimin sacda bişmiş taxıl
təqdimidirsə, onu narın undan, zeytun
yağı ilə yoğrulmuş mayasız kökə kimi
bişir. 6Onu ov və üstünə zeytun yağı
tök. Bu, taxıl təqdimidir.

7Əgər təqdimin tavada bişən taxıl
təqdimidirsə, onu narın undan zeytun
yağı ilə hazırla.

8Bu üsullarla hazırlanan taxıl təq-
dimini Rəbbin yanına gətir və kahinə
təqdim et. O da təqdimini qurbangaha
aparsın. 9Kahin bu təqdimdən xatirə
təqdimi kimi pay götürərək qur-
bangahda tüstülədib yandırsın. Bu,
Rəbbin xoşuna gələn ətir – yandırma
təqdimidir. 10Taxıl təqdiminin qalan
hissəsi isə Harunla övladlarına məxsus
olsun. Bu, Rəbb üçün verilən yandır-
ma təqdimindən götürüldüyü üçün ən
müqəddəsdir.

11Rəbbə gətirilən heç bir taxıl təq-
dimi mayalı xəmirdən hazırlanmasın.
Tərkibində ya maya ya da bal olan
təqdim Rəbb üçün yandırma təqdimi
kimi tüstülədilib yandırılmasın. 12Bun-
ları ilk məhsul təqdimləri kimi Rəbbin
yanına gətirin. Amma xoşa gələn ətir
kimi qurbangahda təqdim olunmasın.
13Taxıl təqdimlərinin hər birini duzla,
onlardan Allahınla əhdinin duzunu
əsirgəmə. Bütün təqdimlərini duzla.

14Əgər sən Rəbbə nübarından taxıl
təqdimini gətirsən, onda təzə taxılı
odda qovurub yarmasını təqdim et.
15Onun üstünə zeytun yağı və kündür
qoy. Bu, taxıl təqdimidir. 16Kahin bir

a **2:1** *Kündür* – saqqız ağacının qabığından hazırlanan xoşiyli sarımtıl maddə.

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 117



az yarma və zeytun yağı götürərək
bütün kündürlə xatirə təqdimi kimi
tüstülədib yandırsın. Bu, Rəbb üçün
verilən yandırma təqdimidir.

### *Ünsiyyət qurbanı*

3 [1]Əgər kimsə ünsiyyət qurbanı
gətirsə və qurbanlıq heyvan mal-
qaradandırsa, qoy o, Rəbbin hüzu-
runa qüsursuz erkək və ya dişi heyvan
gətirsin. [2]Qoy adam əlini qurbanlığın
başına qoyub Hüzur çadırının girişin-
də kəssin və Harun nəslindən olan ka-
hinlər qanı qurbangahın hər tərəfinə
səpsinlər. [3]Qoy o adam ünsiyyət
qurbanından bunları Rəbb üçün yan-
dırma təqdimi kimi gətirsin: içalatı
örtən piyi və üstündəki piyi, [4]belindəki
hər iki böyrəyi, üstündəki piyi və
qaraciyərin quyruğa bənzər hissəsini –
bunları böyrəkləri ilə birgə çıxartsın.
[5]Bunları Harun övladları qurbangah-
da odunlarla qalanan od üstündəki
yandırma qurbanı ilə tüstülədib yan-
dırsınlar. Bu, Rəbbin xoşuna gələn ətir
– yandırma təqdimidir.

[6]Əgər Rəbbə təqdim olunan ünsiy-
yət qurbanı qoyun-keçidəndirsə, qoy
o, qüsursuz erkək və yaxud dişi hey-
van gətirsin. [7]Əgər gətirdiyi qurban
bir qoyundursa, qoy onu Rəbbin
önündə belə təqdim etsin: [8]əlini qur-
banın başına qoyub onu Hüzur çadı-
rının qabağında kəssin, Harun övlad-
ları qanı qurbangahın hər tərəfinə səp-
sinlər. [9]Qoy o adam ünsiyyət qurba-
nından bunları Rəbb üçün yandırma
təqdimi kimi gətirsin: onurğayadək
kəsdiyi quyruğunu, içalatı örtən piyi
və üstündəki bütün piyi [10]belindəki hər
iki böyrəyini, üstündəki piyi və qara-
ciyərin quyruğa bənzər hissəsini –
bunları böyrəkləri ilə birgə çıxartsın.
[11]Bunları kahin qurbangahda tüstülə-
dib yandırsın. Bu, Rəbb üçün yan-
dırma təqdimi olaraq verilən paydır.

[12]Əgər adamın qurbanlığı bir keçi-
dirsə, qoy onu Rəbbin önündə belə
təqdim etsin: [13]əlini heyvanın başına
qoyub onu Hüzur çadırının qabağında
kəssin. Harun övladları onun qanını
qurbangahın hər tərəfinə səpsinlər.
[14]Qoy o adam qurbandan bunları
Rəbb üçün yandırma təqdimi kimi
gətirsin: içalatı örtən piyi və üstündəki
bütün piyi, [15]belindəki hər iki böy-
rəyini və üstündəki piyi, qaraciyərin
quyruğa bənzər hissəsini – bunları
böyrəkləri ilə birgə çıxartsın. [16]Kahin
bunları qurbangah üstündə tüstülədib
yandırsın. Bu, yemək – yandırma
təqdimi, xoşa gələn ətirdir.

Bütün piy Rəbbə məxsusdur. [17]Bu
bütün yaşadığınız yerlərdə nəsildən-
nəslə sizin üçün əbədi qayda olsun:
piyi də, qanı da yeməyin”».

### *Günah qurbanı*

4 [1]Rəbb Musaya dedi: [2]«İsrail
övladlarına belə de: “Əgər kimsə
etməməli olduğu halda Rəbbin bütün
əmrlərindən birini bilmədən pozarsa,
qoy bunlara əməl etsin.

[3]Əgər məsh edilmiş baş kahin
günah işlədib xalqı da borclu etsə, o
günaha görə Rəbbə günah qurbanı
olaraq qüsursuz bir buğa təqdim etsin.
[4]Buğanı Hüzur çadırının girişinə,
Rəbbin hüzuruna gətirsin və əllərini
heyvanın başına qoyub onu Rəbbin
hüzurunda kəssin. [5]Sonra məsh edil-
miş kahin buğanın qanından götürüb
Hüzur çadırına gətirsin. [6]Kahin bar-
mağını qana batıraraq Rəbbin hüzu-
runda Müqəddəs yerin pərdəsi qaba-
ğında yeddi dəfə çiləsin. [7]Sonra kahin

Hüzur çadırında, Rəbbin önündə olan ətirli buxur qurbangahının buynuzlarına o qandan çəksin, buğanın qanının qalan hissəsini isə Hüzur çadırının girişindəki yandırma qurbanları üçün qurulan qurbangahın altlığına töksün. [8]Qoy sonra kahin günah qurbanı olan buğanın piyini bütövlükdə götürsün. İçalatı örtən piyi və üstündəki bütün piyi, [9]belindəki hər iki böyrəyi və üstündəki piyi, qaraciyərin quyruğa bənzər hissəsini – bunları böyrəkləri ilə birgə çıxartsın. [10]Bunların hamısı ünsiyyət qurbanı olan mal-qaradan götürüldüyü kimi götürülsün və həmin kahin onları yandırma qurbanları üçün qurulan qurbangahda tüstülədib yandırsın. [11]Buğanın dərisini, başından budlarına qədər bütün ətini – içalatını, bağırsaqlarını, [12]hər qalan hissəsini düşərgədən kənara çıxarıb kül tökülən pak bir yerə atsın və orada odunla yandırsın.

[13]Əgər bütün İsrail icması bilmədən günah işlətsə, bu onların nəzərindən qaçsa və etməməli olduqları halda Rəbbin bütün əmrlərindən birini pozub təqsirkar olsalar, [14]işlədikləri günah aşkara çıxanda camaat günah qurbanı olaraq bir buğa götürüb Hüzur çadırının qabağına gətirsin. [15]İcmanın ağsaqqalları Rəbbin hüzurunda əllərini buğanın başına qoyub onu kəssinlər. [16]Sonra məsh edilmiş kahin buğanın qanından götürüb Hüzur çadırına gətirsin. [17]Kahin barmağını qana batırıb Rəbbin hüzurunda pərdənin qabağına yeddi dəfə çiləsin. [18]Sonra kahin Hüzur çadırında Rəbbin önündəki qurbangahın buynuzlarına o qanı çəksin və buğanın qanının qalan hissəsini isə Hüzur çadırının girişindəki yandırma qurbanları üçün qurulan qurbangahın altlığına töksün. [19]Sonra o heyvanın bütün piyini götürərək qurbangahda tüstülədib yandırsın; [20]günah qurbanı olan buğaya nə cür etsə, bu buğaya da eyni cür etsin. Bununla kahin xalq üçün kəffarə etsin ki, xalq bağışlansın. [21]Sonra kahin buğanı düşərgədən kənara çıxarıb əvvəlki buğanı yandıran kimi yandırsın. Bu, camaat üçün verilən günah qurbanıdır.

[22]Başçılardan biri günah işlədərək etməməli olduğu halda Allahı Rəbbin bütün əmrlərindən birini pozub təqsirkar olsa, [23]işlətdiyi günah özünə aşkar olanda qoy qurban olaraq qüsursuz təkə gətirsin; [24]əlini təkənin başına qoyub onu Rəbbin hüzurunda – yandırma qurbanlar kəsilən yerdə onu kəssin. Bu, günah qurbanıdır. [25]Sonra kahin barmağı ilə günah qurbanının qanından bir az götürüb yandırma qurbanları üçün qurulan qurbangahın buynuzlarına çəksin. Qanın qalan hissəsini isə həmin qurbangahın altlığına töksün. [26]Sonra o heyvanın bütün piyini ünsiyyət qurbanının piyi kimi qurbangahda tüstülədib yandırsın. Bununla kahin o adam üçün günahını kəffarə etsin ki, o bağışlansın.

[27]Əgər ölkə xalqından bir nəfər etməməli olduğu halda Rəbbin əmrlərindən birini pozaraq bilmədən günah işlədib bu günahda təqsirkar olsa, [28]işlətdiyi günah özünə aşkar olanda qoy o, günahına görə özü üçün qurban – qüsursuz dişi keçi gətirsin, [29]və əlini günah qurbanının başına qoyub bu qurbanı yandırma qurbanları kəsilən

**4:7-31** *Say. 15:27-28*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 119



yerdə kəssin. 30Sonra kahin barmağı
ilə qurbanın qanından bir az götürüb
yandırma qurbanları üçün qurulan
qurbangahın buynuzlarına çəksin;
qanın qalan hissəsini isə qurbangahın
altlığına töksün. 31Sonra heyvanın bü-
tün piyini ünsiyyət qurbanının piyini
çıxardığı kimi çıxarıb onu Rəbbin
xoşuna gələn ətir kimi qurbangahda
tüstülədib yandırın. Bununla kahin o
adam üçün kəffarə etsin ki, o bağış-
lansın.

32Əgər adam günah qurbanı olaraq
qoyun gətirsə, qoy o qüsursuz dişi hey-
van gətirsin 33və əlini günah qurba-
nının başına qoysun və onu yandırma
qurbanları kəsilən yerdə kəssin.
34Sonra kahin öz barmağı ilə günah
qurbanının qanından bir az götürüb
yandırma qurbanları üçün qurulan
qurbangahın buynuzlarına çəksin;
qanın qalan hissəsini isə qurbangahın
altlığına töksün. 35Sonra o adam hey-
vanın bütün piyini ünsiyyət qurbanı
olan qoyunun piyi kimi çıxarsın və
kahin onu qurbangahda Rəbb üçün
verilən yandırma təqdimi üzərində
tüstülədib yandırsın. Bununla kahin o
adam üçün işlətdiyi günahı kəffarə
etsin ki, o bağışlansın.

5 1Günahın işləndiyini görərək ya-
xud bilərək şahidi olan adam and
içdiriləndə bu barədə şəhadət etməsə,
cəzasını çəkər. 2Bilmədən hər hansı
murdar bir əşyaya, çöl, ev ya da
qaynaşan heyvanın leşinə toxunan hər
kəs murdar və təqsirkar sayılır. 3Birini
murdarlayan ifrazata, insandan ifraz
olan murdarlığa bilmədən toxunan
kəs – nə cür murdarlıq olursa olsun –
onu dərk edəndə təqsirkar sayılır.
4Düşünmədən və bilmədən hər hansı
bir ehtiyatsız andla pislik yaxud
yaxşılıq etmək üçün and içən hər kəs
bunu biləndə təqsirkar sayılır. 5Bu
adam bunlardan birinə görə təqsirini
biləndə qoy günahını etiraf etsin 6və o,
günaha görə Rəbbin qarşısında təq-
sirini yumaq üçün sürüdən dişi qoyun
ya da dişi keçi götürüb günah qurbanı
olaraq gətirsin. Bununla kahin o adam
üçün günahını kəffarə etsin.

7Lakin əgər o adamın qoyun-keçi
qurbanı kəsməyə gücü çatmırsa, gü-
nahına görə təqsirini yumaq üçün
Rəbbə iki qumru quşu yaxud da iki
göyərçin – biri günah qurbanı, digərini
yandırma qurbanı olaraq gətirsin 8və
kahinə versin. Kahin əvvəl günah
qurbanı olan quşu təqdim etsin: başını
bədəndən ayırmadan boynunu üzsün
9və günah qurbanının qanından qur-
bangahın bir tərəfinə çiləsin, qanın
digər hissəsini isə qurbangahın altlı-
ğına töksün. Bu, günah qurbanıdır.
10İkinci quş da qayda-qanuna uyğun
olaraq yandırma qurbanı kimi təqdim
olunsun. Bununla kahin o adam üçün
işlətdiyi günahı kəffarə etsin ki, o
bağışlansın.

11Əgər o adamın hətta iki qumru
quşuna və yaxud iki göyərçinə gücü
çatmırsa, qoy işlətdiyi günah üçün
narın undan efanın onda birini günah
qurbanı kimi təqdim etsin. Lakin qoy
onun üstünə nə zeytun yağı, nə də kün-
dür qoymasın, çünki bu günah qur-
banıdır. 12Qoy bu adam onu kahinin
yanına gətirsin. Kahin ondan xatirə
təqdimi kimi bir ovuc götürüb qur-
bangahda Rəbb üçün verilən yan-
dırma təqdimi üzərində tüstülətsin. Bu,
günah qurbanıdır. 13Bununla kahin o
adam üçün işlətdiyi hər hansı bir
günahı kəffarə etsin ki, o adam ba-
ğışlansın. Qalan hissə taxıl təqdimi ki-

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 120



mi kahinə məxsus olsun”».

### *Təqsir qurbanı*

**14**Rəbb Musaya dedi: **15**«Rəbbin
müqəddəs şeylərinə etinasız yanaşıb
bilmədən günah edən hər kəs təqsir
qurbanı olaraq sürüdən qüsursuz bir
qoç gətirsin. Bu təqsir qurbanı Mü-
qəddəs yerdəki şekelə münasib gümüş
şekellə qiymətləndirilməlidir. **16**Mü-
qəddəs şeylərə vurduğu ziyanı da qoy
o adam ödəsin və üstünə beşdə birini
əlavə edərək kahinə versin; kahin
onun üçün təqsir qurbanı olan qoçla
kəffarə etsin ki, o bağışlansın.
**17**Əgər bir nəfər günah işlədib
etməməli olduğu halda Rəbbin bütün
əmrlərindən birini pozarsa və bunu
bilmədən edərsə, təqsirkar sayılıb
cəzasını çəkməlidir. **18**Qoy o, kahinin
yanına təqsir qurbanı olaraq sürüdən
qüsursuz və dəyərli bir qoç gətirsin.
Bununla kahin onun bilmədən törət-
diyi günahı kəffarə etsin ki, o bağış-
lansın. **19**Bu, təqsir qurbanıdır. Həmin
adam Rəbbin qarşısında təqsirkar
olmuşdur».

**6** **1**Rəbb Musaya dedi: **2**«Əgər bir
şəxs günah edib Rəbbə xəyanət
edərsə, özünə əmanət edilən, girov
qoyulan yaxud oğurluq bir şey
barəsində başqa bir adamı aldadarsa
ya da ona haqsızlıq edərsə, **3**itmiş bir
əşyanı tapıb yalan söyləsə, yalandan
and içərsə, yəni insanların edə biləcəyi
bu günahlardan birini edərsə, **4**o şəxs
günah etmiş olur və təqsirkar sayılır.
Oğurladığı ya da haqsızlıqla ələ ke-
çirdiyi şeyi, özünə əmanət edilən ya da
tapdığı itmiş əşyanı **5**yaxud barəsində
yalandan and içdiyi şeyin üzərinə
beşdə birini də əlavə edərək təqsir
qurbanını gətirdiyi gün sahibinə geri
qaytarsın. **6**Bu adam Rəbbin qar-
şısında təqsirini yumaq üçün kahinin
yanına təqsir qurbanı olaraq sürüdən
qüsursuz və dəyərli bir qoç gətirsin.
**7**Bununla kahin günah edən adam
üçün təqsirinə səbəb olduğu hər şeyi
Rəbbin önündə kəffarə etsin ki, o
bağışlansın».

### *Kahinlər üçün təlimat: yandırma qurbanı*

**8**Rəbb Musaya dedi: **9**«Harunla
oğullarına əmr verib de: “Yandırma
qurbanına aid olan təlimat budur.
Yandırma qurbanı bütün gecə səhərə
qədər qurbangahdakı odda qalsın, bu
od isə qoy sönmədən yansın. **10**Qoy
kahin kətan paltarını, kətan alt geyi-
mini əyninə geyib qurbangahda yan-
dırma qurbanını məhv edən oddan
çıxan külü götürüb qurbangahın ya-
nına qoysun. **11**Sonra kahin geyimini
çıxarıb başqa paltar geyinsin və külü
düşərgədən kənara çıxararaq pak bir
yerə töksün. **12**Qoy od qurbangahda
yansın və sönməsin. Hər səhər kahin
odunla od qalayıb üstünə yandırma
qurbanını düzsün və ünsiyyət qur-
banlarının piyini tüstülədib yandırsın.
**13**Qoy bu od qurbangahda daima
yansın və sönməsin.

### *Taxıl təqdimi*

**14**Taxıl təqdiminə aid olan təlimat
budur. Harun övladları bunu Rəbbin
hüzurunda qurbangahın qabağında
təqdim etsinlər. **15**Qoy kahin bir ovuc
taxıl təqdimini, narın un ilə zeytun
yağını və üstündəki kündürün hamısını
götürüb qurbangahda tüstülətsin. Bu,
Rəbbin xoşuna gələn ətir – xatirə

---

**6:1-7** *Say. 5:5-8*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 121



təqdimidir. 16Təqdimin qalan hissəsini Harunla övladları yesin; onu müqəddəs bir yerdə – Hüzur çadırının həyətində mayasız çörək kimi yesinlər. 17Bu, taxıldan maya ilə bişirilməsin. Bunu Mənə gətirilən yandırma təqdimlərindən kahinlərə düşən pay kimi verirəm. O, günah qurbanı və təqsir qurbanı kimi ən müqəddəsdir. 18Harunun hər kişi övladı nəsildən-nəslə bunu yesin. Bu, Rəbbə gətirilən yandırma təqdimlərindən onlara verilən əbədi paydır. Bunlara toxunan hər şey müqəddəs sayılar"».

### *Təqdis təqdimi*

19Rəbb Musaya dedi: 20«Harunun məsh olunacağı gün Harunla oğullarının Rəbbə edəcəkləri təqdim budur: daimi taxıl təqdimi olaraq narın undan efanın onda birini – yarısı səhər, yarısı isə axşam, 21zeytun yağı ilə qarışdırılmış, sacda bişmiş halda gətirsin və bu taxıl təqdimini parça-parça qırıb təqdim etsin. Bu, Rəbbin xoşuna gələn ətirdir. 22Harun nəslindən yerinə keçən məsh edilmiş kahin onu belə də hazırlasın; bunu Rəbbə əbədi pay olaraq bütünlüklə tüstülədib yandırsın. 23Kahinin gətirdiyi hər taxıl təqdimi bütünlüklə yandırılsın, o yeyilməməlidir».

### *Günah qurbanı*

24Rəbb Musaya dedi: 25«Harunla oğullarına belə de: "Günah qurbanına aid olan təlimat budur. Günah qurbanı yandırma qurbanı kəsilən yerdə – Rəbbin önündə kəsilsin. Bu qurban ən müqəddəsdir. 26Günah qurbanını təqdim edən kahin onu müqəddəs bir yerdə – Hüzur çadırının həyətində yesin. 27Onun ətinə toxunan hər bir şey müqəddəs sayılar; o qurbandan bir damla qan geyimlərə sıçrasa, o geyim müqəddəs bir yerdə yuyulsun. 28Ətin bişirildiyi saxsı qab sındırılsın; əgər o, tunc qabda bişirilibsə, həmin qab təmizlənib su ilə yaxalansın. 29Kahin nəslindən hər kişi onu yesin; o ən müqəddəsdir. 30Lakin Müqəddəs yerdə günahı kəffarə etmək üçün qanından Hüzur çadırına gətirilən günah qurbanının hamısı yeyilməməlidir, qoy yandırılsın.

### *Təqsir qurbanı*

7 1Təqsir qurbanına aid olan təlimat budur. O ən müqəddəsdir. 2Təqsir qurbanı yandırma qurbanları kəsilən yerdə kəsilsin. Kahin onun qanını qurbangahın hər tərəfinə səpsin. 3Onun bütün piyini təqdim etsin: quyruğunu, içalatı örtən piyi, 4belindəki hər iki böyrəyini və üstündəki piyi, qaraciyərin quyruğa bənzər hissəsini – bunları böyrəkləri ilə birgə çıxartsın. 5Qoy kahin bunu Rəbb üçün yandırma təqdimi olaraq qurbangahda tüstülədib yandırsın. Bu, təqsir qurbanıdır. 6Ətini kahin nəslindən olan hər kişi yesin; bu ət müqəddəs bir yerdə yeyilsin, çünki o ən müqəddəsdir.

7Günah qurbanına da, təqsir qurbanına da aid olan təlimat eynidir: qurbanın əti həmin qurbanla kəffarə edən kahinə məxsus olsun. 8Bir adamın gətirdiyi yandırma qurbanının dərisi də həmin qurbanı təqdim edən kahinə məxsus olsun. 9Təndirdə bişirilmiş hər taxıl təqdimi, tavada, sacda hazırlanan hər bir şey onu götürüb təqdim edən kahinə məxsus olsun. 10Zeytun yağı ilə yoğrulmuş yaxud hər quru taxıl təqdimi isə bütün Harun

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 122



övladları arasında bərabər paylara bölünsün.

### *Ünsiyyət qurbanı*

11Rəbbə təqdim olunan ünsiyyət qurbanına aid olan təlimat budur. 12Əgər kimsə onu təşəkkür etmək üçün qurban gətirsə, onda o, zeytun yağı ilə yoğrulmuş mayasız kökələr, üstünə zeytun yağı sürtülmüş mayasız qoğallar və zeytun yağı ilə narın undan yoğrulmuş kökələr gətirsin. 13Bundan əlavə, o, mayalı çörək kökələrini təşəkkür ifadə edən ünsiyyət qurbanı ilə təqdim olaraq gətirsin. 14Bunların hər növündən birini Rəbbə qaldırılan pay kimi təqdim etsin. O, ünsiyyət qurbanının qanını səpən kahinə məxsus olsun. 15Təşəkkür ifadə edən ünsiyyət qurbanının əti qurban kəsilən gün yeyilsin. O, səhərə qədər qalmamalıdır.

16Əgər kimsə verdiyi əhdə görə yaxud könüllü təqdim olaraq qurban gətirərsə, qurbanın əti kəsildiyi gün yeyilsin, qalan hissəsi isə sabahkı gün yeyilə bilər, 17lakin üçüncü günə qalan qurbanlıq əti yandırılsın. 18Əgər ünsiyyət qurbanlarının ətindən üçüncü gün yeyilsə, o qurbanı gətirən adam qəbul olunmaz və qurban onun xeyrinə sayılmaz, bu ət iyrənc sayılar və onu yeyən adam cəzasını çəkər.

19Murdar sayılan hər hansı bir şeyə toxunan ət yeyilməməli və yandırılmalıdır. Hər pak adam murdar ətdən başqa hər cür ət yeyə bilər; 20murdar halda isə Rəbbə kəsilən ünsiyyət qurbanının ətini yeyən hər kəs xalqı arasından qovulsun. 21Bir nəfər hər hansı murdar əşyaya, insandan ifraz olan murdarlığa yaxud murdar bir heyvana yaxud hər hansı iyrəndirici bir murdar şeyə toxunub sonra da Rəbbin ünsiyyət qurbanının ətindən yeyərsə, xalqı arasından qovulsun"».

### *Xalq üçün qurbanlara aid olan təlimat*

22Rəbb Musaya dedi: 23«İsrail övladlarına belə de: "Mal-qara, qoyun və keçi piyini yeməyin. 24Təbii yolla ölən yaxud parçalanıb ölən heyvanın piyini hər bir başqa iş üçün işlədə bilərsiniz, lakin onu qətiyyən yemək olmaz. 25Rəbb üçün yandırma təqdimi olaraq verilən heyvanın piyindən yeyən hər kəs xalqı arasından qovulsun. 26Bütün yaşadığınız yerlərdə heç vaxt quşların və heyvanların qanını yeməyin; 27qan yeyən hər kəs xalqı arasından qovulsun"».

28Rəbb Musaya dedi: 29«İsrail övladlarına belə de: "Rəbbə ünsiyyət qurbanı təqdim edən şəxs onun bir hissəsini Rəbbin hüzuruna qurban gətirsin. 30Onu öz əli ilə Rəbb üçün yandırma təqdimi olaraq gətirsin; heyvanın piyi ilə döş ətini gətirib Rəbbin hüzurunda yellətmə təqdimi versin. 31Kahin piyi qurbangahda tüstülədib yandırsın; döş əti isə Harunla övladlarına məxsus olsun. 32Ünsiyyət qurbanları olan heyvanlarınızın sağ budunu qaldırma təqdimi kimi kahinə verin; 33həmin sağ bud ünsiyyət qurbanının qanını və piyini təqdim edən Harun övladlarının payı olsun". 34Çünki Mən yellədilən döş ətini və qaldırılan budu İsrail övladlarından, onların ünsiyyət qurbanlarından götürüb kahin Harunla övladlarına İsraillilərdən gələn əbədi pay kimi vermişəm. 35Bu, Rəbbə kahinlik etmək üçün bunları təqdim etdiyi gün

**7:26-27** *Yar. 9:4; Lev. 17:10-14; 19:26; Qanun. 12:16,23-25; 15:23*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 123



Rəbb üçün verilən yandırma təqdim-
lərindən Harunun və övladlarının
payıdır; 36Harunla övladları məsh
olunduğu gün Rəbb əmr etmişdir ki,
nəsildən-nəslə İsrail övladları bu əbədi
payı onlara versinlər».

37Bu, yandırma qurbanına, taxıl
təqdiminə, günah qurbanına, təqsir
qurbanına, təqdis təqdiminə və ünsiy-
yət qurbanına aid olan 38Rəbbin Sina
dağında Musaya əmr etdiyi təlimatdır.
Rəbb bu təlimatı İsrail övladlarına
Sina səhrasında qurbanlarını Ona təq-
dim etməklə əlaqədar əmr etdiyi gündə
vermişdi.

### *Harunla oğullarının kahinliyə təqdis olunması*

*(Çıx. 29:1-37)*

8 1Rəbb Musaya dedi: 2«Harunla
oğullarını, geyimlərini, məsh ya-
ğını və günah qurbanı kəsmək üçün bir
buğa, iki qoç, bir səbət mayasız çörək
götür. 3Sonra bütün icmanı Hüzur ça-
dırının girişinə topla».

4Musa Rəbbin əmrinə əməl etdi.
İcma Hüzur çadırının girişinə yığılan-
da 5Musa onlara dedi: «Rəbbin əmr
etdiyi budur».

6Sonra Musa Harunla oğullarını
irəli gətirib onları su ilə yuyundurdu.
7Harunun əyninə xirqəsini geyindirib
belinə qurşağını bağladı, üstündən
cübbəsini geyindirdi və üstünə efodu
qoydu. Efodun kəmərini belinə bağ-
layıb efodu özünə bərkitdi. 8Efodun
üstündən döşlüyünü, döşlüyündə isə
Urim və Tummimi yerləşdirdi. 9Onun
başına çalmanı, çalmanın qabaq his-
səsinə qızıl lövhəciyi olan müqəddəslik
tacını qoydu. Rəbbin Musaya əmr
etdiyi kimi oldu.

10Musa məsh yağını götürüb məs-
kəni və içindəki hər şeyi məsh edərək
təqdis etdi. 11Sonra məsh yağını qur-
bangaha yeddi dəfə çiləyib onunla
bütün avadanlığını, ləyənlə altlığını da
təqdis etmək üçün məsh etdi. 12Musa
bir az məsh yağı götürüb Harunun
başına tökərək onu təqdis etmək üçün
məsh etdi. 13Sonra Musa Harunun
oğullarını irəli gətirdi, onlara xirqə
geyindirdi, bellərinə qurşaq bağladı və
başlarına papaq qoydu. Rəbbin Mu-
saya əmr etdiyi kimi oldu.

14Bundan sonra Musa günah qur-
banı üçün nəzərdə tutulmuş buğanı gə-
tirdi. Harunla oğulları həmin buğanın
başına əllərini qoydular. 15Musa bu-
ğanı kəsdi, qanını götürüb barmağı ilə
qurbangahın buynuzlarının ətrafına
çəkərək qurbangahı pak etdi. Sonra
qanın qalan hissəsini qurbangahın
altlığına tökdü və murdarlığını kəffarə
etmək üçün onu təqdis etdi. 16Musa
heyvanın içalatının üstündəki bütün
piyi, qaraciyərin quyruğa bənzər his-
səsini, hər iki böyrəklə piyini götürərək
qurbangahda tüstülədib yandırdı.
17Buğanı – dərisini, ətini və bağırsaq-
larını düşərgənin kənarında yandırdı.
Rəbbin Musaya əmr etdiyi kimi oldu.

18Musa yandırma qurbanı üçün nə-
zərdə tutulmuş qoçu gətirdi. Harunla
oğulları əllərini qoçun başına qoydu-
lar. 19Musa qoçu kəsdi və qanını qur-
bangahın hər tərəfinə səpdi. 20Qoçu
parça-parça doğradı; Musa qoçun
başını, parçalarını və piyini tüstülədib
yandırdı. 21Sonra içalatını və budları-
nı su ilə yudu və bütün qoçu qurban-
gahda tüstülədib yandırdı. Bu, yandır-
ma qurbanı, Rəbbin xoşuna gələn ətir
– yandırma təqdimi idi. Rəbbin
Musaya əmr etdiyi kimi oldu.

22Musa o biri qoçu – təqdis qoçunu

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 124



gətirdi; Harun və oğulları əllərini qoçun başına qoydular. 23Musa onu kəsdi; qanından bir az götürüb Harunun sağ qulağının mərcəyinə, sağ əlinin və sağ ayağının baş barmağına çəkdi. 24Bundan sonra Musa Harunun oğullarını gətirib onların sağ qulaq mərcəklərinə, sağ əllərinin baş barmaqlarına və sağ ayaqlarının baş barmaqlarına qan çəkdi. Musa heyvanın qanını qurbangahın hər tərəfinə səpdi. 25Sonra piyini, quyruğunu, içalatının üstündəki piyi, qaraciyərinin quyruğa bənzər hissəsini, hər iki böyrəklə piyini və sağ budunu götürdü. 26Rəbbin önündə olan mayasız çörəklər səbətindən bir mayasız kökə, bir zeytun yağı ilə yoğrulmuş çörək kökəsi və bir qoğal götürüb piylə sağ budun üstünə qoydu. 27O bunların hamısını Rəbbin hüzurunda yellətmə təqdimi üçün Harunun və oğullarının əllərinə verdi. 28Sonra Musa həmin şeyləri onların əllərindən alıb qurbangahda yandırma qurbanı ilə birlikdə tüstülədib yandırdı. Bu, təqdis qurbanı, Rəbbin xoşuna gələn ətir – yandırma təqdimidir. 29Musa döş ətini götürdü və onu Rəbbin hüzurunda yellədərək təqdim etdi. Bu, təqdis qurbanı olan qoçdan Musanın payı idi. Rəbbin Musaya əmr etdiyi kimi oldu.

30Musa məsh yağını və qurbangahdakı qanı götürüb Haruna, onun geyimlərinə, oğullarına və geyimlərinə çilədi. Beləliklə, Harunu və onun geyimlərini, oğullarını və onların geyimlərini təqdis etdi.

31Sonra Musa Harunla oğullarına dedi: «Əti Hüzur çadırının girişində qaynadın və “Harunla oğulları onu yesin” deyib əmr etdiyimə görə onu orada təqdis təqdimi üçün səbətdəki çörəklə yeyin. 32Çörəyin və ətin qalan hissələrini yandırın. 33Təqdis günləri başa çatana qədər yeddi gün Hüzur çadırının girişindən kənara çıxmayın; çünki vəzifəyə keçmə vaxtınız yeddi gün davam edəcək. 34Bu gün edilən hər şeyi Rəbb kəffarəniz üçün əmr etdi. 35Yeddi gün ərzində gecə-gündüz Hüzur çadırının girişində qalın və Rəbbin buyruğuna riayət edin ki, ölməyəsiniz. Mənə belə əmr verilib».

36Harunla oğulları Rəbbin Musa vasitəsilə əmr etdiyi hər şeyə əməl etdilər.

### *Harun qurban gətirir*

9 1Bundan səkkiz gün sonra Musa Harunla oğullarını və İsrail ağsaqqallarını yanına çağırıb 2Haruna dedi: «Özün üçün günah qurbanı kimi qüsursuz bir erkək dana və yandırma qurbanı kimi qüsursuz bir qoç götür və Rəbbin hüzurunda təqdim et. 3Sonra İsrail övladlarına de: “Günah qurbanı kimi bir təkə, yandırma qurbanı kimi birillik qüsursuz bir dana və birillik qüsursuz bir toğlu, 4Rəbbin hüzurunda kəsilən ünsiyyət qurbanları kimi bir buğa, bir qoç və zeytun yağı ilə yoğrulmuş taxıl təqdimləri götürün. Çünki bu gün Rəbb sizə görünəcək”».

5Musanın əmr etdiyi hər şey Hüzur çadırının önünə gətirildi. Sonra bütün icma yaxınlaşıb Rəbbin hüzurunda durdu. 6Musa dedi: «Rəbb bu işi əmr etdi ki, siz əməl edəsiniz, onda Rəbbin izzəti sizə görünəcək». 7Musa Haruna dedi: «Qurbangaha yaxınlaş və özün üçün günah qurbanı ilə yandırma qurbanını gətir. Həm özünün, həm də

**9:7** *İbr. 7:27*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 125



xalqının günahlarını bunlarla kəffarə
et. Xalqın qurbanını da təqdim edərək
onların günahını bununla kəffarə et.
Rəbb əmr etdiyi kimi olsun».

[8]Harun qurbangaha yaxınlaşıb özü
üçün günah qurbanı olan dananı
kəsdi. [9]Onun qanını Harunun oğulları
atalarına təqdim etdilər. Harun bar-
mağını qana batırıb qurbangahın buy-
nuzlarına çəkdi; qanın qalan hissəsini
isə qurbangahın altlığına tökdü.
[10]Sonra günah qurbanının piyini, böy-
rəklərini, qaraciyərini, quyruğa bənzər
hissəsini qurbangahda tüstülədib yan-
dırdı. Rəbbin Musaya əmr etdiyi kimi
oldu. [11]Qurbanın əti ilə dərisini dü-
şərgənin kənarında yandırdı.

[12]Bundan sonra Harun yandırma
qurbanını kəsdi. Onun qanını Haru-
nun oğulları atalarına gətirdilər; o da
qanı qurbangahın hər tərəfinə səpdi.
[13]Parça-parça kəsilən qurbanı və ba-
şını Haruna gətirdilər; o da onları qur-
bangahda tüstülədib yandırdı. [14]Qur-
banın içalatı ilə budlarını yuyaraq
qurbangahda yandırma qurbanı ilə
birgə tüstülədib yandırdı.

[15]Bundan sonra Harun xalqın
qurbanını təqdim etdi. Xalq üçün
günah qurbanı olan təkəni götürüb
kəsdi; onu birinci günah qurbanı kimi
gətirdi. [16]Yandırma qurbanı üçün
heyvan gətirdi və onu qayda-qanuna
uyğun olaraq təqdim etdi. [17]Sonra
Harun taxıl təqdimini gətirdi. Səhər
təqdim olunan yandırma qurbanından
savayı ovuclarını taxıl təqdimi ilə
doldurub qurbangahda tüstülədərək
yandırdı.

[18]Harun xalq üçün ünsiyyət qurbanı
olan buğanı və qoçu kəsdi. Harunun
oğulları bunların qanını atalarına
gətirdilər; o da qanı qurbangahın hər
tərəfinə səpdi. [19]Buğanın və qoçun
piyini, quyruğunu, içalatı örtən piyini,
böyrəklərini, qaraciyərinin quyruğa
bənzər hissəsini götürüb [20]döş ətlərini
üstünə qoydular. Harun da bu piyi
qurbangahda tüstülədib yandırdı,
[21]döş ətlərini isə sağ budları ilə bir-
likdə Rəbbin önündə yellədərək təq-
dim etdi. Rəbbin Musaya əmr etdiyi
kimi oldu.

[22]Harun günah qurbanını, yan-
dırma qurbanını və ünsiyyət qurbanını
gətirdikdən sonra əllərini xalqa doğru
uzadıb onlara xeyir-dua verdi. Sonra o
aşağı düşdü.

[23]Musa ilə Harun Hüzur çadırına
girdilər. Sonra onlar çıxıb birlikdə
xalqa xeyir-dua verdilər. O vaxt Rəb-
bin izzəti bütün xalqa göründü [24]və
Rəbbin hüzurundan od çıxıb qur-
bangahdakı yandırma qurbanı ilə piyi
yandıraraq yox etdi. Bütün xalq bunu
görərək sevincdən qışqırıb üzüstə yerə
düşdü.

### *Nadavla Avihunun məhv olması*

10 [1]Harun oğulları Nadav və Avi-
hu buxurdanlarını götürüb içinə
közərmiş kömürlə buxur qoydular və
Rəbbin önünə haram od gətirdilər.
Belə təqdimi Rəbb əmr etməmişdi.
[2]Rəbb hüzurundan od göndərib onları
məhv etdi. Onlar Rəbbin hüzurunda
öldülər. [3]Musa Haruna dedi: «Budur,
Rəbb belə demişdir:

“Mənə yaxınlaşanlar Məni
müqəddəs saysınlar;
Bütün xalq məni izzətləndirsin”».

Harun isə susurdu.

[4]Musa Harunun əmisi Uzzielin
oğulları Mişaellə Elsafanı çağırıb dedi:

**9:18** *Lev. 3:1-11* **9:22** *Say. 6:22-26*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 126



«Yaxın gəlin və qardaşlarınızın
cəsədlərini Müqəddəs yerin önündən
düşərgənin kənarına aparıb qoyun».
**5**Musa bu sözü deyən kimi onlar
yaxınlaşdılar və cəsədləri xirqələri
əynindəcə düşərgənin kənarına aparıb
qoydular. **6**Musa Haruna və onun sağ
qalan oğulları Eleazar və İtamara de-
di: «Siz yas tutaraq saçlarınızı dağıt-
mayın, geyimlərinizi cırmayın. Yoxsa
ölərsiniz və Rəbb bütün icmaya qəzəb-
lənər. Ancaq bütün İsrailli soydaş-
larınız Rəbbin yandırdığı adamların
yasını tutsun. **7**Hüzur çadırının girişin-
dən kənara çıxmayın, yoxsa ölərsiniz,
çünki Rəbbin məsh yağı sizin üstü-
nüzdədir». Onlar da Musanın dediyi
kimi etdilər.

### *Kahinlər üçün təlimat*

**8**Rəbb Haruna dedi: **9**«Sən və
övladların Hüzur çadırına nə şərab, nə
də başqa keflləndirici içki içib gir-
məyin, yoxsa ölərsiniz. Qoy bu, nə-
sildən-nəslə sizin üçün əbədi qayda
olsun. **10**Müqəddəslə adi şeyləri ayırd
edin, həm də pak və murdar şeylər
arasında fərq qoyun. **11**Mənim Musa
vasitəsilə bəyan etdiyim bütün qay-
daları İsrail övladlarına öyrədin».
**12**Musa Haruna və sağ qalan oğul-
ları Eleazarla İtamara dedi: «Rəbb
üçün verilən yandırma təqdimlərindən
qalan taxıl təqdimini götürün və
mayasız çörək bişirib qurbangahın
yanında yeyin, çünki bu ən müqəd-
dəsdir. **13**Onu müqəddəs bir yerdə
yeyin, mənə verilmiş əmrə görə bu,
Rəbb üçün verilən yandırma təqdim-
lərindən sənin və övladlarının payına
düşür. **14**Yellədilən döş ətini və qal-
dırılan bud ətini isə sən, oğulların və
qızların pak bir yerdə yeyin; çünki
bunlar İsrail övladlarının ünsiyyət
qurbanlarından sənin və övladlarının
payı kimi ayrılıb. **15**Qaldırılan bud
ətini və yellədilən döş ətini Rəbbin
önündə yellətmək üçün yandırma
təqdimi olan piylə birlikdə gətirin. Bu
sizin və övladlarınızın əbədi payı
olacaq. Rəbb belə əmr etmişdir».
**16**Musa günah qurbanı olan təkəni
axtardı. O isə yandırılmışdı. Musa
Harunun sağ qalan oğullarına –
Eleazara və İtamara qəzəblənib dedi:
**17**«Siz nə üçün günah qurbanını mü-
qəddəs sayılan yerdə yemədiniz?
Çünki bu qurban ən müqəddəsdir və
sizə verilib ki, onunla icmanın günah-
larının cəzasını üzərindən götürüb
onlar üçün Rəbbin önündə kəffarə
edəsiniz. **18**Təkənin qanı içəri, Müqəd-
dəs yerə gətirilmədi. Mən sizə əmr
etdiyim kimi siz onun ətini mütləq
Müqəddəs yerdə yeməli idiniz».
**19**Harun Musaya dedi: «Bu gün günah
qurbanı və yandırma qurbanı Rəbbin
önündə təqdim olunmuşdur. Ancaq
başıma belə iş gəldi. Əgər mən bu gün
günah qurbanını yemiş olsaydım, o,
Rəbbə məqbul olardımı?» **20**Musa
bunu eşidib razılaşdı.

### *Əti yeyilən və yeyilməyən heyvanlar*

*(Qanun. 14:3-21)*

**11** **1**Rəbb Musa ilə Haruna belə
dedi: **2**«İsrail övladlarına belə
deyin: "Quruda yaşayan heyvanlar-
dan belələrinin ətini yemək olar. **3**Hər
hansı qoşadırnaqlı gövşəyən heyvanın
ətini yeyə bilərsiniz. **4**Lakin gövşəyən
yaxud qoşadırnaqlı heyvanlar içində
bunları yeməyin: dəvə, çünki o gövşəsə
də, qoşadırnaqlı deyil, buna görə də

**10:10** *Yez. 22:26; 44:23* **10:12-13** *Lev. 6:14-18* **10:14-15** *Lev. 7:30-34* **10:16-17** *Lev. 6:24-26*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 127



sizin üçün haramdır; 5qayadovşanı,
çünki o gövşəsə də qoşadırnaqlı deyil,
buna görə də sizin üçün haramdır;
6dovşan, çünki o gövşəsə də qoşa-
dırnaqlı deyil, buna görə də sizin üçün
haramdır; 7donuz, çünki o qoşa-
dırnaqlı olsa da, gövşəmir, buna görə
də sizin üçün haramdır. 8Onların nə
ətini yeyin, nə də leşinə toxunun, onlar
sizin üçün haramdır.

9Sularda, dənizlərdə yaxud çaylar-
da yaşayan heyvanlardan üzgəcləri və
pulcuqları olanların hamısını yeyə
bilərsiniz. 10Amma sularda, dənizlərdə
yaxud çaylarda qaynaşan heyvanlar-
dan üzgəcləri və pulcuqları olmayan
hər canlı məxluq sizin üçün iyrənc
olsun. 11Onların ətini yeməyin və
leşindən iyrənin; onlar sizin üçün
iyrənc olsun. 12Sularda üzgəcləri və
pulcuqları olmayanların hamısı sizin
üçün iyrənc olsun.

13Quşlardan bunları iyrənc oldu-
ğuna görə yeməyin: qartal, keçələkər-
kəs, qaraquş, 14çalağan, bütün şahin
cinsindən olanlar, 15bütün qarğa cin-
sindən olanlar, 16dəvəquşu, bayquş,
qağayı, bütün qırğı cinsindən olanlar,
17yapalaq, qarabatdaq, böyük bayquş,
18ağ bayquş, qutan, leş kərkəsi, 19ley-
lək, bütün vağ cinsindən olanlar, şa-
napipik, yarasa.

20Dördayaqla gəzən, qanadlı qay-
naşan heyvanların hamısı da sizin
üçün iyrənc olsun. 21Lakin dördayaqla
gəzən, qanadlı qaynaşan heyvanlar-
dan yerdə sıçramaq üçün oynaqlı
ayaqları olanları yeyə bilərsiniz;
22onlardan bütün çəyirtkə cinsindən
olanları, bütün keçəl çəyirtkə cinsin-
dən olanları, bütün sisək cinsindən
olanları, bütün şala cırcıraması cinsin-
dən olanları yemək olar. 23Bütün digər
dördayaqlı qanadlı qaynaşan heyvan-
lar isə sizin üçün iyrənc olsun.

24Bu heyvanlardan siz özünüz
murdar ola bilərsiniz. Hər kim onların
leşinə toxunursa, axşama qədər mur-
dar sayılsın. 25Onların leşindən bir
hissəsini daşıyan hər kəs də geyim-
lərini yusun; axşama qədər murdar
sayılsın. 26Qoşadırnağı olmayan ya-
xud gövşəməyən hər dırnaqlı heyvan
sizin üçün murdar olsun. Onların
leşinə toxunan hər kəs murdar sa-
yılsın. 27Pəncələri üstündə yeriyən
dördayaqlı hər heyvan sizin üçün
murdar olsun; onların leşinə toxunan
hər kəs axşama qədər murdar sayılsın.
28Onların leşini daşıyan geyimlərini
yusun və axşama qədər murdar sayıl-
sın. Bu heyvanlar sizin üçün murdar
sayılsın.

29Yerdə qaynaşan heyvanlar ara-
sında sizin üçün murdar olan bun-
lardır: kor siçan, siçan, hər növ kər-
tənkələ, 30gekkon, varan, kərtəncik,
kələz, buqələmun. 31Bunlar bütün
qaynaşan heyvanlar arasında sizin
üçün murdar olsun. Onların leşinə
toxunan hər kəs axşamadək murdar
sayılsın. 32Onlardan birisinin leşi
üstünə düşən hər şey murdar sayılsın.
Hər taxta, parça, dəri yaxud giş əşya
nə cür iş üçün işlənsə, suya salınsın.
Axşama qədər murdar sayılsın, ax-
şamdan sonra təmiz sayılsın. 33On-
lardan biri gil qabın içinə düşsə, onun
içindəki hər şey murdar sayılsın və
qab qırılsın. 34Belə bir qabdan su
xörəyin içinə tökülsə, o xörək mur-
darlanır. Bu cür qabın içində hər içki
murdarlanır. 35O heyvanlardan biri-
nin leşi üstünə düşən hər bir şey
murdar sayılsın. İstər təndir, istərsə də
ocaq sökülsün, çünki murdarlanıb;

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 128



onlar sizin üçün murdar olsun.
**36**Ancaq su bulağı yaxud su anbarı
pak sayılsın. Bu heyvanların leşinə
toxunan hər kəs murdar sayılsın.
**37**Bunlardan birinin leşi əkin üçün
ayrılmış toxumun üstünə düşərsə, o
toxum təmiz sayılsın. **38**Amma leş su-
ya salınmış toxumun üstünə düşərsə,
toxum sizin üçün murdar olsun.

**39**Əti sizin üçün yeməli olan hey-
vanlardan biri ölərsə, leşinə toxunan
adam axşama qədər murdar sayılsın.
**40**O heyvanın leşindən yeyən adam
geyimini yusun və axşama qədər mur-
dar sayılsın. Leşini daşıyan adam da
geyimləri yusun və axşama qədər mur-
dar sayılsın.

**41**Yer üzündə sürünən hər qaynaşan
heyvan sizin üçün iyrənc olsun; onu
yeməyin. **42**İstər qarnı üstündə, istər
dörd ayağı ilə sürünən ya da yer
üzündəki çoxayaqlı olan qaynaşan
heyvanlardan yeməyin, çünki onlar
iyrəncdir. **43**Qaynaşan heyvanların heç
biri ilə özünüzü iyrənc edib murdar-
lamayın, çünki onlara görə siz murdar
olarsınız.

**44**Allahınız Rəbb Mənəm. Özünüzü
təqdis edin və müqəddəs olun, çünki
Mən müqəddəsəm; özünüzü yerdə sü-
rünən heç bir qaynaşan heyvanla mur-
dar etməyin. **45**Çünki Allahınız olmaq
üçün sizi Misir torpağından çıxaran
Rəbb Mənəm. Müqəddəs olun, çünki
Mən müqəddəsəm"».

**46**Heyvan, quş, sularda üzən hər cür
canlı məxluq, yer üzündə qaynaşan hər
cür heyvan haqqında təlimat budur.
**47**Bununla pakla murdar şeylər ara-
sında, yeyilən və yeyilməyən heyvanlar
arasında fərq qoyulur.

### *Zahı qadınlar üçün qaydalar*

**12** **1**Rəbb Musaya dedi: **2**«İsrail
övladlarına belə de: "Hamilə
olub oğlan uşağı doğan bir qadın
aybaşı, murdarlıq dövründə olduğu
kimi yeddi gün murdar sayılsın.
**3**Səkkizinci gün uşaq sünnət olunsun.
**4**Qadın qanaxmadan paklanmaq üçün
daha otuz üç gün gözləsin. Bu pak-
lanma dövrü bitənə qədər qadın heç
bir müqəddəs şeyə toxunmamalı və
Müqəddəs məkana yaxınlaşmamalı-
dır.

**5**Əgər bir qadın qız uşağı doğarsa,
aybaşı vaxtı kimi iki həftə murdar
sayılsın və paklanmaq üçün əlavə
olaraq altmış altı gün gözləsin.

**6**Oğlan yaxud qız uşağı doğub pak-
lanma müddəti bitəndə qadın Hüzur
çadırının girişinə birillik toğlunu yan-
dırma qurbanı kimi və göyərçin yaxud
qumru quşunu kahinin yanına günah
qurbanı kimi gətirsin. **7**Kahin bunları
Rəbbin hüzurunda qurban gətirib,
zahı qadın üçün kəffarə etsin ki, o qan
axmasından pak olsun. Qız ya oğlan
doğan zahı qadın üçün təlimat budur.

**8**Əgər qadının toğlu gətirməyə gücü
çatmırsa, onda birini yandırma qur-
banı, o birini isə günah qurbanı olaraq
iki qumru quşu yaxud iki göyərçin
gətirsin. Bununla kahin həmin zahı
üçün kəffarə etsin ki, o pak olsun"».

### *Cüzam və dəri xəstəlikləri*

**13** **1**Rəbb Musaya və Haruna dedi:
**2**«Bir adamın dərisində şiş
yaxud səpki yaxud ləkə əmələ gəlib
dəridə cüzam[a] kimi görünən bir
əlaməti olarsa, qoy o adam kahin

---

a **13:2** *Cüzam* – yaxud *iyrənc dəri xəstəliyi.*

**11:44-45** *Lev. 19:2; 1Pet. 1:16* **12:3** *Yar. 17:12; Luka 1:59; 2:21* **12:8** *Luka 2:24*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 129



Harunun yaxud onun nəslindən olan
kahinlərin birinin yanına gətirilsin.
3Kahin dəridəki əlamətə baxsın. Əla-
mət üstündəki tükləri ağardıb dəridən
dərin görünsə, bu, cüzamın bir əla-
mətidir. Kahin baxıb o adamı murdar
elan etsin. 4Əgər dərisindəki ləkə ağ
olub dəridən dərin görünməsə və
üstündəki tükləri ağartmasa, kahin
azarlını yeddi gün müddətinə təcrid
etsin. 5Yeddinci gün kahin ona baxsın.
Onun nəzərində əlamət yerində qalıb
dərisinə yayılmayıbsa, kahin onu yenə
də yeddi gün müddətinə təcrid etsin.
6Yeddinci gün kahin yenə də ona
baxsın. Əlamət dərisinə yayılmayıb,
solubsa, kahin o adamı pak elan etsin.
Bu azar dəri səpməsidir. Qoy o adam
geyimlərini yusun, sonra pak sayılsın.
7Lakin kahin ona baxıb pak say-
dıqdan sonra səpmə dərisinə yayılırsa,
o yenə də özünü kahinə göstərsin.
8Kahin yenə də ona baxsın, dərisin-
dəki səpmə yayılıbsa, kahin o adamı
murdar elan etsin. Bu cüzamdır.

9Bir adamın dərisində cüzam əla-
məti əmələ gələrsə, qoy o adam ka-
hinin yanına gətirilsin. 10Kahin ona
baxsın, dəridəki tükləri ağardan xoralı
ağ bir şiş varsa, 11bu, bədəninin də-
risində kök salmış cüzamdır. Kahin o
adamı murdar elan etsin, amma təcrid
etməsin, çünki o murdardır. 12Əgər
cüzam dəriyə yayılıb bütün bədəni bü-
rüsə və əlamətin onu təpədən dırna-
ğadək tutması kahinə görünsə, 13qoy
kahin diqqətlə baxsın. Cüzam bütün
bədəni bürüyübsə, kahin azarlını pak
elan etsin. Ağardığı üçün o adam pak
sayılsın. 14Lakin o adamda xoralanma
görünsə o, murdar sayılsın. 15Kahin o
adama baxıb xoralanma görsə, onu
murdar elan etsin. Xoralanma mur-
dardır, o, cüzamdır. 16Xoralanma sa-
ğalıb ağardığı halda o adam kahinin
yanına getsin 17və kahin ona baxsın;
əlamət ağarıbsa, o adamı pak elan
etsin, çünki o, pakdır.

18Bir adamın dərisində çiban əmələ
gəlib sağaldıqdan sonra 19və yerində
ağ şiş yaxud qırmızımtıl-ağ parlaq ləkə
əmələ gələn halda bu əlamət kahinə
göstərilsin. 20Kahin ləkəyə baxsın,
üstündəki tükləri ağarıb dəridən dərin
görünsə, kahin o adamı murdar elan
etsin. Bu, çibanla başlanan cüzamdır.
21Əgər kahin baxıb görsə ki, ləkənin
üstündəki ağ tüklər yoxdur və ləkə
dəridən dərin deyil, solğundur, onda
kahin azarlını yeddi gün müddətinə
təcrid etsin. 22Əgər dəridəki ləkə yayı-
lırsa, kahin adamı murdar elan etsin.
Çünki bu, əlamətdir. 23Amma ləkə ye-
rində qalıb yayılmayıbsa, bu, çiban-
dan qalan çapıqdır. Kahin o adamı
pak elan etsin.

24Bir adamın dərisində olan yanıq
yerində qırmızımtıl-ağ yaxud ağ par-
laq ləkə əmələ gələrsə, 25kahin ləkəyə
baxsın, ləkə üstündəki tükləri ağardıb
dəridən dərin görünsə, bu yanıqda
başlanan cüzamdır. Kahin o adamı
murdar elan etsin, çünki bu cüzamın
əlamətidir. 26Əgər kahin baxıb görsə
ki, ləkənin üstündə ağ tüklər yoxdur və
ləkə dəridən dərin olmayaraq solğun
görünür, bu halda kahin azarlını yeddi
gün müddətinə təcrid etsin. 27Yeddinci
gün kahin yenə azarlıya baxsın. Əgər
ləkə dəriyə yayılıbsa, kahin o adamı
murdar elan etsin; bu, cüzamın əla-
mətidir. 28Amma ləkə yerində qalıb
dərisində yayılmayıbsa və solubsa, bu,
yanıqdan qalan şişdir; kahin o adamı
pak elan etsin, çünki bu, yanıqdan
qalan izdir.

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 130



29Bir kişinin ya qadının başında ya
çənəsində əlamət olanda 30kahin ona
baxsın. Əlamət dəridən dərin görünür-
sə və üstündəki tüklər sarı və nazik-
dirsə, kahin onu murdar elan etsin. Bu
başda ya da çənədə iyrənc xəstəlik –
qoturdur. 31Kahin qotur əlamətinə
baxsın. Əlamət dəridən dərin görün-
məyib üstündə qara tüklər olmayan
halda kahin qotur adamı yeddi gün
müddətinə təcrid etsin. 32Kahin yed-
dinci gün yenə də əlamətə baxsın, qo-
turluq yayılmayıbsa, üstündəki tüklər
saralmayıbsa, qoturluq da dəridən
dərin görünmürsə, 33qoy o adam
qoturluq olan yerdən başqa bütün
bədənini qırxsın. Sonra kahin onu
yenə də yeddi gün müddətinə təcrid
etsin. 34Yeddinci gün kahin yenə də
əlamətə baxsın. Əgər qotur dəriyə
yayılmayıbsa və dəridən dərin görün-
məsə, kahin o adamı pak elan etsin.
Qoy o adam geyimlərini yusun, sonra
da pak sayılsın. 35Lakin əgər kahin
xəstəni pak saydıqdan sonra qoturluq
dəriyə yayılırsa, 36kahin ona təkrarən
baxsın. Qoturluq dərisinə yayılıbsa,
kahin üstündəki sarı tükün olub-ol-
mamasına baxmasın. O adam murdar
sayılsın. 37Lakin kahinin nəzərində
qoturluq yerində qalıbsa və üstündə
qara tük əmələ gəlirsə, qotur keçir və
onda o adam pak sayılsın, kahin onu
pak elan etsin.

38Bir kişinin yaxud qadının dəri-
sində ağ parlaq ləkələr olarsa, 39qoy
kahin baxsın; dərisində donuq ağ
ləkələr varsa, bu başlanan dəmrovdur.
O adam pak sayılsın.

40Başının təpəsində saçı tökülmüş
kişi dazdır. O pak sayılsın. 41Əgər
alnından saçı tökülübsə, o adamın alnı
açılmışdır və o pak sayılsın. 42Lakin
daz və yaxud alnı açılmış adamın saçı
tökülən yerdən qırmızımtıl-ağ ləkə
çıxarsa, bu həmin yerdə başlanan
cüzamdır. 43Kahin oraya baxsın, saçı
tökülmüş yerdəki şiş qırmızımtıl-
ağdırsa və cüzam kimi görünürsə, 44o
kişi iyrənc xəstəliyə tutulduğu üçün
murdar sayılsın. Başındakı əlamətə
görə kahin mütləq onu murdar elan
etsin.

45Belə iyrənc xəstəliyə tutulan ada-
mın geyimləri cırıq, saçı isə dağınıq
olmalıdır. O adam üzünün aşağı his-
səsini örtüb "Murdaram! Murdaram!"
deyə çığırsın. 46Dərisində əlamət ol-
duğu bütün müddət o murdar sayılsın.
Murdarlığına görə düşərgədən kənar-
da tək yaşasın.

### *Parçadakı iyrənc kif*

47Üstündə iyrənc kif əlaməti olan
hər cür parça: yun ya da kətan geyim
48yaxud hər cür toxunma parça yaxud
dəri və hər dəri məmulatı haqqında
təlimat budur. 49Ya geyimdə, dəridə
ya da hər cür parçada, dəridən düzəl-
miş hər bir əşyada əmələ gələn əlamət
yaşıltəhər və ya qırmızımtıl olsa, bu,
iyrənc kif əlamətidir. Qoy bu, kahinə
göstərilsin. 50Kahin ona baxıb, əşyanı
yeddi gün müddətinə təcrid etsin.
51Yeddinci gün yenə də ona baxıb
görsə ki, geyimə, parçaya, dəriyə
yaxud dəridən düzəlmiş məmulata əla-
mət yayılıb, bu əlamət təhlükəli iyrənc
kifdir, murdar sayılsın. 52Üstündə
əlamət olan yun ya da kətan geyimi
yaxud parçanı yaxud dəridən olan
əşyanı kahin yandırsın. Bu, iyrənc
təhlükəli kifdir, yandırılsın.

53Amma əgər kahin baxıb görsə ki,
geyimə, parçaya yaxud dəridən olan
əşyaya əlamət yayılmayıb, 54kahin

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 131



əmr versin ki, üstündə əlamət olan hər şey yuyulsun. Sonra onu yenə də yeddi gün müddətinə təcrid etsin. **55**Əlamət yuyulduqdan sonra kahin yenə də o şeyə baxsın. Əlamət yayılmadığı halda görkəmini dəyişməyibsə, o şey murdar sayılsın. Əlamət istər ön, istərsə arxa tərəfindən olsun, onu yandırmalısınız. **56**Lakin kahin baxıb görsə ki, əlamət yuyulduqdan sonra rəngi solub, qoy onu geyimdən, dəridən yaxud parçadan qopartsın. **57**Əgər bundan sonra əlamət geyimdə, parçada yaxud dəri əşyada yenidən əmələ gələrsə, o əşyanın sahibi onu yandırsın. **58**Yuyulduqdan sonra əlamət üstündən yox olan paltar, parça yaxud dəri əşya yenə də yuyulub pak sayılsın.

**59**Bu, yun və ya kətan geyimdə, hər toxunma parçada və dəridən olan hər əşyada əmələ gələn iyrənc kif əlamətinə əsasən onu pak ya murdar saymaq üçün təlimatdır».

### *Cüzam haqqında*

**14** **1**Rəbb Musaya dedi: **2**«Dərisində cüzam olan adamın paklanması haqqında təlimat budur. Bu adam kahinin yanına gətirildikdə **3**kahin düşərgədən kənara çıxıb cüzama tutulan xəstəyə baxsın; onun dərisindəki əlamətlər sağalıbsa, **4**onda qoy kahin paklanan adam üçün iki pak diri quş, sidr ağacının budağı, al rəngli ip və züfa otu gətirməyi əmr etsin. **5**Kahinin buyurduğuna görə quşların biri saxsı qabda axar su üzərində kəsilsin. **6**Sonra kahin sağ qalan quşu, sidr ağacının budağını, al rəngli ipi və züfa otunu götürüb, axar suyun üzərində kəsilən quşun qanına batırsın. **7**Sonra qoy cüzamdan paklanan adamın üstünə yeddi dəfə qanı çiləyib onu pak elan etsin. Sağ qalan quşu çölə buraxsın. **8**Paklanan adam geyimlərini yusun, özünü bütünlüklə qırxsın, su ilə yuyunsun; sonra pak sayılsın və düşərgəyə girsin. Amma o, yeddi gün ərzində öz çadırından kənarda yaşasın. **9**Yeddinci gün o adam saçını, saqqalını, qaşlarını, bədənindəki bütün tüklərini qırxsın, geyimini yusun, bədənini su ilə yusun, sonra pak sayılsın.

**10**Səkkizinci gün o adam qüsursuz iki erkək toğlu, birillik qüsursuz dişi toğlu, taxıl təqdimi olaraq bir efanın onda üç hissəsi miqdarında zeytun yağı ilə yoğrulmuş un və bir loq zeytun yağı gətirsin. **11**Paklanma mərasimi ilə məşğul olan kahin paklanan adamı və gətirdiyi təqdimləri Rəbbin hüzuruna – Hüzur çadırının girişinə gətirsin. **12**Kahin erkək toğluların birini götürüb zeytun yağı ilə təqsir qurbanı kimi təqdim etsin. Onları Rəbbin hüzurunda yellədərək təqdim etsin. **13**Toğlunu günah qurbanı və yandırma qurbanı kəsdiyi yerdə – müqəddəs sayılan yerdə kəssin; çünki günah qurbanı kimi təqsir qurbanı da kahinə aiddir. O qurban ən müqəddəsdir. **14**Sonra kahin təqsir qurbanının qanından bir az götürüb paklanan adamın sağ qulağının mərcəyinə, sağ əlinin və sağ ayağının baş barmağına çəksin. **15**Kahin bir az zeytun yağı götürüb sol ovcuna töksün və **16**sağ əlinin bir barmağını sol ovcundakı zeytun yağına batıraraq Rəbbin hüzurunda yeddi dəfə çiləsin. **17**Ovcunda qalan yağdan kahin paklanan adamın sağ qulaq mərcəyinə, sağ əlinə və sağ ayağının baş barmağına, yəni təqsir qurbanının

**14:2** *Mat. 8:4; Mark 1:44, Luka 5:14; 17:14*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 132



qanından çəkdiyi yerlərə sürtsün.
18Kahin ovcundakı yağın qalan his-
səsini bu adamın başına çəkib bununla
onun üçün Rəbbin önündə kəffarə
etsin. 19Bundan sonra kahin günah
qurbanını kəssin. Bununla paklanan
adam üçün murdarlığını kəffarə etsin.
Sonra isə yandırma qurbanını kəsib
20onunla taxıl təqdimini qurbangahda
təqdim etsin. Beləcə kahin o adam
üçün kəffarə etsin ki, o pak sayılsın.

21Əgər o adam yoxsuldur və bu
təqdimlərə gücü çatmırsa, özünün
kəffarəsi üçün yellədilən təqsir qurbanı
kimi bir erkək toğlu, taxıl təqdimi
kimi zeytun yağı ilə yoğrulmuş onda
bir efa narın unla bir loq zeytun yağı,
22biri günah qurbanı, o biri yandırma
qurbanı olaraq iki qumru quşu yaxud
iki göyərçin götürsün. Bunlara gücü
çatar. 23Paklanmasının səkkizinci
günü bu adam bunları kahinin yanına,
Hüzur çadırının girişinə – Rəbbin
hüzuruna gətirsin. 24Kahin təqsir qur-
banı olan toğlunu və bir loq zeytun
yağını götürüb yelləmə təqdimi olaraq
Rəbbin hüzurunda yelləsin və 25təqsir
qurbanı olan toğlunu kəssin. Sonra
kahin təqsir qurbanının qanından bir
az götürüb paklanan adamın sağ qulaq
mərcəyinə və sağ əli ilə sağ ayağının
baş barmaqlarına çəksin. 26Kahin
zeytun yağından bir az sol ovcuna
töksün 27və sağ əlinin bir barmağı ilə
sol ovcundakı yağdan Rəbbin hüzu-
runda yeddi dəfə çiləsin. 28Ovcundakı
yağdan paklanan adamın sağ qulaq
mərcəyinə, sağ əlinin və sağ ayağının
baş barmağına, yəni təqsir qurbanının
qanını çəkdiyi yerlərə çəksin. 29Kahin
ovcundakı yağın qalan hissəsini bu
adamın başına çəksin. Bununla o
adam üçün Rəbbin önündə kəffarə
etsin. 30Sonra bu adam gücü çatan
qədər qumru quşlarından ya göyərçin-
lərdən birini təqdim etsin. 31Gücü
çatan qədər birini günah qurbanı kimi,
o birisini isə taxıl təqdimi ilə birgə
yandırma qurbanı kimi təqdim etsin.
Beləcə kahin paklanan adam üçün
Rəbbin önündə kəffarə etsin». 32Bu,
dərisində cüzamın əlaməti olub pak-
lanmasına gücü çatmayan adam üçün
təlimatdır.

### *Evlərdəki iyrənc kif*

33Rəbb Musaya və Haruna dedi:
34«Sizə mülk olaraq verəcəyim Kənan
torpağına girəndən sonra Mən ölkə-
nizdə olan bir evə iyrənc kif əlaməti
göndərsəm, 35qoy ev sahibi gedib
kahinə "evimdə kifə bənzər bir şey
görünüb" deyə xəbər versin. 36Kahin
kifə baxmazdan əvvəl evi boşaltmağı
əmr etsin ki, evdə hər bir əşya murdar
sayılmasın, sonra o evə baxmağa
getsin. 37Əlamətə baxsın: evin divarla-
rında yaşıltəhər yaxud qırmızımtıl, di-
varın səthindən dərin görünən ləkələr
varsa, 38kahin evdən çıxsın və onu
bağlayıb yeddi gün müddətinə təcrid
etsin. 39Yeddinci gün kahin yenə də
gəlib baxsın. Əlamət evin divarına
yayılıbsa, 40onda əmr etsin ki, kifli
daşlar qoparılsın və şəhərdən kənara –
murdar yerə atılsın. 41Sonra evin
içinin hər tərəfini qaşıyıb təmizləsinlər
və qaşıdıqları malanı şəhərdən kənara
– həmin murdar yerə töksünlər.
42Qoparılmış daşların yerinə başqa
daşları götürüb qoysunlar, sonra təzə
mala götürüb evi malalasınlar.

43Əgər daşları qopardıqdan və evi
qaşıyıb malalayandan sonra yenə də
evdə kif əlaməti əmələ gəlsə, 44kahin
gedib baxsın. Əlamət evə yayılıbsa,

evdə olan təhlükəli, iyrənc kif budur və
o murdar sayılsın. 45Belə halda qoy ev
sökülsün, onun daşları, taxtaları,
bütün malası şəhərdən kənara – mur-
dar yerə atılsın. 46Ev bağlı olduğu vaxt
ərzində evə girən hər bir adam axşama
qədər murdar sayılsın. 47O evdə yeyən
yaxud yatan adam geyimlərini yusun.

48Ev malalanandan sonra kahin
gəlib evə baxanda görsə ki, əlamət evə
yayılmayıb, o, evi pak elan etsin, çünki
kif keçib gedib. 49O, evi pak etmək
üçün iki quş, sidr ağacının budağı, al
rəngli ip və züfa otunu götürüb
50quşların birini saxsı qabda axar su
üzərində kəssin. 51Sonra kahin sidr
ağacının budağını, züfanı, al rəngli ipi
və sağ qalan quşu götürüb kəsilən
quşun qanına və axar suya batırsın,
evə yeddi dəfə çiləyərək 52quşun qanı,
axar su, sağ qalan quş, sidr ağacının
budağı, züfa otu və al rəngli iplə o evi
pak etsin. 53Qoy kahin sağ qalan quşu
şəhərdən kənara – çölə buraxsın.
Beləcə o evi kəffarə etsin ki, o pak
sayılsın».

54Bu, hər cür cüzam, qotur, 55ge-
yimlərdə və evlərdə əmələ gələn iyrənc
kif, 56şiş, səpki və ləkə, 57belə cüzamın
nə vaxt murdar, nə vaxt pak sayılması
barədə müəyyən edən təlimatdır.

### *Xəstəliyə görə bədən axıntıları*

15 1Rəbb Musaya və Haruna dedi:
2«İsrail övladlarına belə deyin:
"Bir nəfərin xəstəliyə görə bədən
axıntısı olarsa, o murdar sayılsın.
3Xəstəliyə görə bədən axıntısı istər
sərbəst axsın, istərsə də qatılaşsın, o
şəxs murdar sayılır. 4Üstündə yatdığı
hər yataq və oturduğu hər şey murdar
sayılsın. 5Kim onun yatağına toxunar-
sa, geyimini yusun, su ilə yuyunsun;
sonra axşama qədər murdar sayılsın.
6Xəstəliyə görə bədən axıntısı olan
şəxs üstündə oturduğu əşyanın üstün-
də oturan hər kəs də geyimlərini
yusun, su ilə yuyunsun, sonra axşama
qədər murdar sayılsın. 7Xəstəliyə görə
bədən axıntısı olan şəxsin bədəninə
toxunan hər kəs də geyimini yusun və
özü su ilə yuyunsun, sonra axşama
qədər murdar sayılsın. 8Xəstəliyə görə
bədən axıntısı olan şəxs pak adama
tüpürsə, o adam geyimini yusun, su ilə
yuyunsun. O, axşama qədər murdar
sayılsın. 9Xəstəliyə görə bədən axıntısı
olan şəxsin mindiyi hər yəhər murdar
sayılsın. 10Onun altında olmuş hər
şeyə toxunan hər kəs də geyimlərini
yusun, su ilə yuyunsun, sonra axşama
qədər murdar sayılsın; belə şey da-
şıyan hər kəs də geyimini yusun.
11Xəstəliyə görə bədən axıntısı olan
şəxs əllərini yumamış kimə toxunarsa,
o adam geyimlərini yusun və su ilə
yuyunsun, sonra axşama qədər mur-
dar sayılsın. 12Xəstəliyə görə bədən
axıntısı olan şəxsin toxunduğu hər
saxsı qab sındırılsın, taxta qab isə su
ilə yuyulsun.

13Bu adam öz axıntısı kəsildiyi
halda paklanmaq üçün yeddi gün
gözləsin, geyimini yusun, bədənini
axar su ilə yusun, sonra pak sayılsın.
14Səkkizinci gün iki qumru quşu ya iki
göyərçin götürüb Rəbbin hüzuruna –
Hüzur çadırının girişinə gəlsin və
bunları kahinə versin. 15Kahin quş-
ların birini günah qurbanı, o birini isə
yandırma qurbanı kimi təqdim etsin.
Bunlarla kahin o şəxs üçün axıntısına
görə Rəbbin önündə kəffarə etsin.

### *Cinsi axıntı*

16Toxumu tökülən hər kişi bütün

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 134



bədənini su ilə yusun, sonra axşama qədər murdar sayılsın. 17Üstünə toxum tökülüb bulaşan hər geyim ya da dəri əşya yuyulsun, sonra axşama qədər murdar sayılsın. 18Kişi qadınla yaxınlıq edəndə toxumu tökülsə, hər ikisi su ilə yuyunsun. Sonra onlar axşama qədər murdar sayılsın.

### *Qadınların qanaxması*

19Aybaşı vaxtı qanaxması olan hər qadın yeddi gün murdar sayılsın, ona toxunan hər kəs isə axşama qədər murdar sayılsın. 20Aybaşı müddəti qadın nəyin üzərində uzanıb və yaxud otursa, hər şey murdar sayılsın. 21O qadının yatağına toxunan hər kəs öz geyimlərini yusun, su ilə yuyunsun və axşama qədər murdar sayılsın. 22O qadının oturduğu hər şeyə toxunan hər kəs də geyimlərini yusun, su ilə yuyunsun, sonra axşama qədər murdar sayılsın. 23Əgər bir adam o qadının yatağına ya üstündə oturduğu şeyə toxunsa, o adam axşama qədər murdar sayılsın. 24Əgər kişi qadınla yaxınlıq edən zaman qadın aybaşı görsə və kişi onunla bulaşsa, kişi də yeddi gün murdar sayılsın; kişinin yatdığı hər yataq da murdar sayılsın.

25Bir qadının aybaşı vaxtından kənar ya da sonra neçə gün davam edən qanaxması olarsa, bütün bu axıntı müddəti aybaşı murdarlığı dövründəki kimi murdar sayılsın. 26Bütün axıntı vaxtı aybaşı murdarlığı vaxtı kimi üstündə yatdığı yataq və oturduğu hər şey murdar sayılsın. 27Onlara toxunan hər kəs də murdar sayılsın. Qoy o, geyimini yusun, su ilə yuyunsun və axşama qədər murdar sayılsın. 28Əgər axıntısı kəsilsə, o qadın yeddi gün gözləsin, sonra pak sayılsın. 29Səkkizinci gün həmin o qadın iki qumru quşu yaxud iki göyərçin götürüb Hüzur çadırının girişinə, kahinin yanına gətirsin. 30Kahin quşların birini günah qurbanı, o birisini isə yandırma qurbanı kimi təqdim etsin. Bunlarla kahin bu qadın üçün axıntısının murdarlığını Rəbbin önündə kəffarə etsin.

31Beləcə İsrail övladlarını öz murdarlığından ayırın ki, aralarında olan Mənim məskənimi murdarlığı ilə murdar edib ölməsinlər”».

32Bu təlimat xəstəliyə görə bədən axıntısı olan adamlar üçün, toxumu tökülməklə murdarlanan hər kişi üçün, 33aybaşı olub murdarlanan hər qadın üçün, axıntı növünə görə olan hər kişi və hər qadın üçün, murdar qadınla yaxınlıq edən hər kişi üçündür.

### *Kəffarə günü*

**16** 1Harunun iki oğlu Rəbbin hüzuruna yaxınlaşıb öləndən sonra Rəbb Musaya dedi: 2«Qardaşın Haruna söylə ki, istənilən vaxt pərdənin iç tərəfindəki Müqəddəs yerə, sandıq üzərindəki kəffarə qapağının önünə keçməsin ki, özü ölməsin, çünki Mən kəffarə qapağının üzərindəki buludda zahir oluram. 3Buna görə Harun Müqəddəs yerə yalnız belə girə bilər: günah qurbanı üçün bir buğa və yandırma qurbanı üçün bir qoç götürsün; 4müqəddəs kətan xirqə geysin, əynində kətan alt paltarı da olsun, belinə kətan qurşaq bağlasın, başına çalma qoysun. Bunlar müqəddəs geyimlərdir. Qoy Harun əvvəl bədənini su ilə yusun, sonra onları geysin. 5İsrail övladlarının icmasından günah

**16:1-2** *İbr. 6:19* **16:3** *İbr. 9:7*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 135



qurbanı iki təkə və yandırma qurbanı
üçün bir qoç götürsün.

**6**Harun özü üçün günah qurbanı
olan buğanı təqdim etsin. Bununla
həm özü, həm də ailəsi üçün günahını
kəffarə etsin. **7**Sonra Harun iki təkəni
götürüb Rəbbin önündə Hüzur çadı-
rının girişində saxlasın. **8**Harun bu
təkələrdən birini Rəbb üçün, o birisini
Azazel[a] üçün püşklə seçsin. **9**Sonra
Harun püşklə Rəbbə məxsus olan
təkəni günah qurbanı olaraq təqdim
etsin. **10**Püşklə Azazel olmaq üçün se-
çilən təkəni isə Rəbbin önündə diri
saxlasın ki, onu sonra Azazel olaraq
çölə göndərib onunla kəffarə etsin.

**11**Harun özü ilə ailəsi üçün kəffarə
edən günah qurbanını – buğanı kəssin.
**12**Rəbbin hüzurundan, qurbangahdan
gətirilən közərmiş kömürlə dolmuş bir
buxurdan götürüb, iki ovuc dolu narın
əzilən xoş ətirli buxurla pərdənin iç
tərəfinə keçsin. **13**Rəbbin hüzurunda
buxuru oda qoysun. Beləcə buxur
tüstüsü bulud ilə Şəhadət sandığının
üzərində olan kəffarə qapağını örtsün
ki, özü ölməsin. **14**Buğanın qanından
götürüb barmağı ilə qapağın ön tərə-
finə – qapağın qarşısına da yeddi dəfə
çiləsin.

**15**Sonra xalq üçün günah qurbanı
olan təkəni kəssin və onun qanını
pərdənin iç tərəfinə gətirib qanını
buğanın qanı kimi kəffarə qapağının
ön tərəfinə və qarşısına çiləsin. **16**Bu-
nunla Harun İsrail övladlarının mur-
darlığına, qanunsuzluğuna və bütün
günahlarına görə Müqəddəs yer üçün
kəffarə etsin; murdar xalqın arasında
yerləşdiyinə görə Hüzur çadırı üçün
belə etsin. **17**Müqəddəs yerdə kəffarə
etməyə girəndən çıxana qədər Hüzur
çadırında da heç kim olmasın. Harun
özü, ailəsi və bütün İsrail camaatı üçün
kəffarə edib **18**çıxsın, sonra Rəbbin
önündə olan qurbangaha gedib onun
üçün kəffarə etsin; buğanın və təkənin
qanından götürüb qurbangahın buy-
nuzlarının ətrafına çəksin. **19**Harun
qurbangahın üstünə barmağı ilə yeddi
dəfə qan çiləsin. Beləcə onu İsrail
övladlarının murdarlığından pak edib
təqdis edin.

**20**Qoy Harun Müqəddəs yeri, Hü-
zur çadırını, qurbangahı kəffarə edib
qurtarandan sonra sağ qalan təkəni
gətirsin **21**və iki əlini o təkənin başına
qoyub İsraillilərin bütün qanunsuzlu-
ğundan və günahlarından ötrü qazan-
dığı cəzanın hamısını onun üzərində
etiraf etsin və təkənin başına ötürsün.
Sonra bu iş üçün təyin olunan bir
adamın vasitəsilə çöldə yola salınsın.
**22**Təkə onların bütün cəzasını öz üzə-
rində ayaq dəyməmiş torpağa aparsın.
O adam təkəni çöldə yola salsın.

**23**Harun Hüzur çadırına girsin və
Müqəddəs yerə girən zaman geymiş
olduğu kətan geyimi çıxarıb orada
qoysun. **24**Müqəddəs bir yerdə bədə-
nini su ilə yusun və öz geyimini geysin.
Oradan çıxıb öz yandırma qurbanını
və xalqın yandırma qurbanını təqdim
etsin. **25**Günah qurbanının piyini də
qurbangahda tüstülədib yandırsın.
**26**Azazel olan təkəni yola salan adam
da geyimini və bədənini su ilə yusun,
sonra düşərgəyə girsin. **27**Müqəddəs
yerdə kəffarə etmək üçün qanı oraya
gətirilən günah qurbanı olan buğa ilə

a **16:8** *Azazel* – xalqın günahını kəffarə etmək üçün çölə qovulan təkə. Kəffarə günü bu təkə xalqın bütün günahını özündə daşıyıb çölə qovulub yox olurdu və bu xalqın günahının gedib yox olmasının rəmzidir.

**16:15-16** *İbr. 9:12* **16:23** *Yez. 44:19* **16:27** *İbr. 13:11*

təkənin dəri, ət və bağırsaqları dü-
şərgənin kənarına aparılıb yandırılsın.
28 Onları yandıran adam geyimini,
bədənini su ilə yusun, ondan sonra
düşərgəyə girsin.

29 Bu sizin üçün əbədi bir qayda
olsun. Yeddinci ayın onuncu günündə
özünüzü hər şeydən məhrum edib heç
bir iş görməyin; həm yerliləriniz, həm
də aranızda yaşayan yadellilər belə
etsin. 30 Çünki o gün sizin üçün kəffarə
olunacaq ki, siz pak olasınız və Rəb-
bin hüzurunda bütün günahlarınızdan
təmizlənəcəksiniz. 31 O gün sizin üçün
Şənbə gününə bənzər istirahət günü-
dür. Özünüzü hər şeydən məhrum
edin. Bu, əbədi qayda olsun. 32 Ata-
sının yerinə kahinlik etmək üçün məsh
edilmiş vəzifəli baş kahin belə kəffarə
etsin: o, müqəddəs kətan geyimlərini
geyib 33 Ən Müqəddəs yer, Hüzur
çadırı, qurbangah üçün kəffarə etsin;
kahinlər və camaatın hər biri üçün də
kəffarə etsin. 34 İldə bir dəfə İsrail
övladlarının bütün günahlarının kəf-
farə edilməsi üçün bu sizə əbədi qayda
olsun». Rəbbin Musaya əmr etdiyi
kimi oldu.

### *Həyat verən qandır*

17 1 Rəbb Musaya belə dedi:
2 «Harunla oğullarına və bütün
İsrail övladlarına söylə: "Rəbbin əmri
budur: 3 İsraillilərdən düşərgədə yaxud
onun kənarında mal-qara, qoyun ya
da keçi kəsən 4 onu Rəbbin məskəninə,
Onun önünə qurban kimi təqdim
edərək Hüzur çadırının girişinə gətir-
məyən hər kəs qan tökməkdə müqəssir
sayılsın. Belə adam xalqı arasından
qovulsun. 5 Belə ki İsrail övladları
qurbanlarını çöldə kəsmək əvəzinə
onları Rəbbin hüzuruna, Hüzur çadı-
rının girişinə, kahinin yanına gətir-
sinlər və Rəbbə ünsiyyət qurbanları
olaraq kəssinlər. 6 Kahin belə qurba-
nın qanını Hüzur çadırı girişinin ya-
nındakı Rəbbin qurbangahına səpsin,
piyini isə Rəbbin xoşuna gələn ətir
kimi tüstülədib yandırsın. 7 İsrail öv-
ladları bir daha Rəbbə xəyanət edib
heç vaxt təkə görkəmində bütlərə
qurban kəsməsinlər. Bu, nəsildən-
nəslə onlar üçün əbədi qayda olsun".

8 Bir də ki onlara de: "İsrail övlad-
larından yaxud aralarında yaşayan
yadellilərdən kim yandırma qurbanını
və ya ünsiyyət qurbanını kəsəndə
9 Rəbbin hüzuruna təqdim edərək Hü-
zur çadırının girişinə qurban gətirmə-
yən hər adam xalqı arasından qovul-
sun.

10 İsrail övladlarından ya da arala-
rında yaşayan yadellilərdən bir az da
olsa, qan yeyən hər kəsdən Mən üz
döndərib xalqı arasından qovacağam,
11 çünki hər məxluqa həyat verən
qandır. Mən onu həyatınızın kəffarəsi
üçün qurbangahda təqdim olunmağa
təyin etmişəm; çünki həyat verdiyinə
görə kəffarə edən qandır. 12 Buna görə
də Mən İsrail övladlarına demişəm:
‹Sizdən heç bir kəs, aranızda yaşayan
yadelli də qan yeməsin›.

13 İsrail övladlarından ya da arala-
rında yaşayan yadellilərdən yeyilə
bilən heyvan yaxud quş ovlayan insan
onun qanını yerə axıdıb torpaqla
örtsün. 14 Çünki hər məxluqa həyat
verən onun qanıdır. Buna görə Mən
İsrail övladlarına ‹heç bir məxluqun
qanını yeməyin› demişəm. Çünki hər

**16:29-34** *Lev. 23:26-32; Say. 29:7-11* **17:7** *2Saln. 11:15* **17:10** *Yar. 9:4; Lev. 7:26-27; 19:26;*
**17:10** *Qanun. 12:16,23-25; 15:23* **17:11** *İbr. 9:22*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 137



məxluqa həyat verən onun qanıdır. Onu yeyən hər kəs xalqının arasından qovulsun. 15Yerli olsun, yadelli olsun, təbii yolla ölən, parçalanıb ölən heyvanı yeyən adam qoy geyimini yusun, su ilə yuyunsun və axşamadək murdar, sonra pak sayılsın. 16Əgər belə adam geyimini və bədənini yumasa, cəzasını çəkəcək"».

### *Qadağan olunmuş cinsi münasibətlər*

18 1Rəbb Musaya dedi: 2«İsrail övladlarına belə de: "Allahınız Rəbb Mənəm. 3Nə əvvəl yaşadığınız Misir torpağının ənənələrinə əməl edin, nə də sizi aparacağım Kənan torpağına girəndən sonra adət-ənənələrinə əməl edib uymayın; 4Mənim hökmlərimə əməl edib qanunlarıma riayət edin, onlara uyğun yaşayın. Allahınız Rəbb Mənəm. 5Qaydalarıma və hökmlərimə səylə əməl edin; onları yerinə yetirən adam bunların sayəsində yaşayacaq. Rəbb Mənəm.

6Qoy heç kəs öz yaxın qohumları ilə cinsi əlaqədə olmaq[a] üçün onlara yaxınlaşmasın. Rəbb Mənəm. 7Atanla cinsi əlaqədə olma, ananla da cinsi əlaqədə olma; o sənin anandır, onunla cinsi əlaqədə olma. 8Atanın arvadı ilə cinsi əlaqədə olma, çünki o sənin atanın namusudur. 9Atabir yaxud anabir bacınla, səninlə bir evdə yaxud başqa yerdə böyümüş bacınla cinsi əlaqədə olma. 10Öz oğlunun qızı yaxud qızının qızı ilə cinsi əlaqədə olma, çünki onların namusu sənin namusundur. 11Atanın başqa arvadından doğulan qızı ilə cinsi əlaqədə olma; o sənin bacındır. 12Bibinlə cinsi əlaqədə olma, çünki o, atanın yaxın qohumudur. 13Xalanla cinsi əlaqədə olma, çünki o, ananın yaxın qohumudur. 14Əminin namusunu tapdalama, onun arvadı ilə yaxınlıq etmə, çünki o sənin əmiarvadındır. 15Oğlunun arvadı ilə cinsi əlaqədə olma. Oğlunun arvadı olduğu üçün onunla cinsi əlaqədə olma. 16Qardaşının arvadı ilə cinsi əlaqədə olma, çünki bu, qardaşının namusudur. 17Bir qadının həm özü, həm də qızı ilə cinsi əlaqədə olma. O qadının oğul ya da qız nəvəsi ilə cinsi əlaqədə olmaq üçün onları alma, çünki onlar sənin yaxın qohumların olduğu üçün bu, əxlaqsızlıqdır. 18Arvadın sağ ikən onun bacısını günü olaraq alma və onunla cinsi əlaqədə olma.

19Aybaşı murdarlığı zamanı qadınla cinsi əlaqədə olmaq üçün onunla yaxınlıq etmə. 20Başqasının arvadı ilə yaxınlıq edib özünü murdarlama. 21Övladlarının heç birini Molekə qurban olaraq təqdim etmə. Beləliklə, Allahının adını ləkələmə. Rəbb Mənəm. 22Kişi qadınla yaxınlıq etdiyi kimi kişi ilə yaxınlıq etməsin, bu, iyrəncdir. 23Nə kişi, nə də qadın heç bir heyvanla cinsi əlaqəyə girib özünü murdarlamasın. Bu, rəzillikdir.

24Bu şeylərin heç biri ilə özünüzü murdar etməyin, çünki önünüzdən qovacağım millətlər bunların hamısı ilə murdarlanıb, 25torpaqlarını da murdarlayıblar. Buna görə də Mən o torpağı cəzalandırıb sakinlərini ora-

---

a **18:6** *Cinsi əlaqədə olmaq* – hərfi tərcümədə *ayıb yerini açmaq.*

**18:5** *Neh. 9:29; Yez. 18:9; 20:11-13; Luka 10:28; Rom. 10:5; Qal. 3:12* **18:8** *Lev. 20:11;*
**18:8** *Qanun. 22:30; 27:20; 1Kor. 5:1* **18:9** *Lev. 20:17; Qanun. 27:22* **18:12-14** *Lev. 20:19-20*
**18:15** *Lev. 20:12* **18:16** *Lev. 20:21* **18:17** *Lev. 20:14; Qanun. 27:23* **18:19** *Lev. 20:18*
**18:20** *Lev. 20:10* **18:21** *Lev. 20:1-5* **18:22** *Lev. 20:13* **18:23** *Çıx. 22:19; Lev. 20:15-16;*
**18:23** *Qanun. 27:21*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 138



dan rədd edirəm. 26İstər yerli, istər
aranızda yaşayan yadelli – hamınız
qaydalarıma və hökmlərimə riayət
edərək iyrənc işlərin heç birinə əməl
etməyin. 27Önünüzdəki ölkənin sakin-
ləri bütün bu iyrənc işləri edərək tor-
pağı murdarlayıblar. 28Əgər siz də bu
torpağı murdarlasanız, torpaq sizdən
əvvəlki milləti ağzından qaytardığı
kimi sizi də ağzından qaytaracaq.
29Buna görə də bu iyrənc işlərin hər
hansı birinə əməl edən hər kəs xalqının
arasından qovulsun. 30Beləliklə, önü-
nüzdə edilən iyrənc adətlərinə əməl
edib onlarla özünüzü murdar etməmək
üçün Mənim buyruğuma riayət edin.
Allahınız Rəbb Mənəm”».

### *Müqəddəslik və ədalət*

19 1Rəbb Musaya dedi: 2«Bütün
İsrail övladlarının icmasına
bəyan edib de: “Müqəddəs olun, çünki
Mən Allahınız Rəbb müqəddəsəm.

3Sizdən hər kəs atasına və anasına
hörmət etsin[1] və Mənim Şənbə gün-
lərimə riayət etsin.[2] Allahınız Rəbb
Mənəm. 4Bütlərə tərəf dönməyin[1] və
özünüzə tökmə allahlar düzəltməyin.[2]
Allahınız Rəbb Mənəm.

5Rəbbə ünsiyyət qurbanları gəti-
rəndə elə gətirin ki, qurbanınız qəbul
edilsin. 6Qurbanınız kəsilən gün yaxud
ertəsi gün yeyilsin, üçüncü günə qalan
hissəsi yandırılsın. 7Əgər ondan üçün-
cü gün yeyilsə, o qurban qəbul olun-
maz, iyrənc sayılar. 8O qurbanı yeyən
adam Rəbbin müqəddəs yeməyini
murdar etdiyinə görə cəzasını çəkər.
Qoy o, xalqı arasından qovulsun.

9Torpağınızda məhsul biçəndə
tarlanın qıraq-bucaqlarını biçməyin və
biçindən düşən başaqları yığmayın.
10Üzüm bağında da tənəkləri büsbütün
təmizləyib yerə düşən salxımları yığ-
mayın. Qalan məhsul kasıblara və
qəriblərə qalsın. Allahınız Rəbb Mə-
nəm.

11Oğurlamayın,[1] bir-birinizə yalan
satıb aldatmayın.[2] 12Allahınızın adını
ləkələməmək üçün adıma yalandan
and içməyin. Rəbb Mənəm.

13Qonşunu istismar etmə, onu
soyma; muzdlu işçinin zəhmət haqqını
axşamdan səhərəcən özündə saxlama.
14Kar adamı söymə və kor adamın
qarşısına büdrədən heç bir şey qoyma.
Allahından qorx. Rəbb Mənəm.

15Məhkəmədə haqsızlıq etməyin.
Nə yoxsula üstünlük ver, nə də varlıya
meyl sal, amma bir-birinizi ədalətlə
mühakimə edin. 16Xalq arasında xə-
bərçilik etmə; qonşunun qanının tö-
külməsini istəmə. Rəbb Mənəm.

17Soydaşına qarşı ürəyində nifrət
bəsləmə. Başqa adamı mütləq tənbeh
et ki, sən də günahının cəzasını çək-
məyəsən. 18Öz xalqından heç kəsdən
qisas alma, heç kimə qarşı kin sax-
lama. Ancaq qonşunu özün kimi sev.
Rəbb Mənəm.

19Mənim qaydalarıma riayət edin.
Başqa növlərdən olan heyvanları
cütləşdirməyin. Tarlanızda iki növ to-
xum əkməyin. Əyninizə iki növ sapdan
toxunmuş paltar geyməyin.

20Bir kişi başqa kişinin nişanlı, hələ

**19:2** *Lev. 11:44-45; 1Pet. 1:16* **19:3 –** [1]*Çıx. 20:12; Qanun. 5:16;* [2]*Çıx. 20:8; Qanun. 5:12*
**19:4 –** [1]*Lev. 26:1;* [2]*Çıx. 20:23; 34:17; Qanun. 17:25* **19:9-10** *Lev. 23:22; Qanun. 24:19-22*
**19:11 –** [1]*Çıx. 20:15; Qanun. 5:19;* [2]*Çıx. 20:16; Qanun. 5:20* **19:12** *Çıx. 20:7; Qanun. 5:11;*
**19:12** *Mat. 5:33* **19:13** *Qanun. 24:14-15* **19:14** *Qanun. 27:18* **19:15** *Çıx. 23:6-8; Qanun. 16:19*
**19:17** *Mat. 18:15* **19:18** *Mat. 5:43; 19:19; 22:39; Mark 12:31,33; Luka 10:27; Rom. 13:9;*
**19:18** *Qal. 5:14; Yaq. 2:8* **19:19** *Qanun. 22:9-11*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 139



qiyməti ödənməmiş, azad olunmamış
qarabaşı ilə yaxınlıq edərsə, ona cəza
verilsin. Amma onlar öldürülməsinlər,
çünki qarabaş azad deyil, **21**o kişi isə
Rəbbin önünə – Hüzur çadırının
girişinə təqsir qurbanı kimi bir qoç
gətirsin. **22**Kahin o kişi üçün işlətdiyi
günahını təqsir qurbanı olan qoçla
Rəbbin önündə kəffarə etsin ki, bu
günahı bağışlansın.

**23**Kənan torpağına girib yemək
üçün hər hansı bir meyvə ağacını
əksəniz, meyvəsi sizin üçün üç il
haramdır, onu yeməyin. **24**Dördüncü
ildə onun bütün meyvəsi şükür təqdimi
kimi Rəbb üçün müqəddəs sayılsın.
**25**Beşinci ildə isə o ağacın meyvəsini
yeyə bilərsiniz. Bunu edin ki, məhsul
xeyriniz üçün artsın. Allahınız Rəbb
Mənəm.

**26**Heç bir əti qanlı-qanlı yeməyin.[1]
Baxıcılıq etməyin və gələcəyi demə-
yin.[2] **27**Gicgahlarınızı qırxmayın, saq-
qallarınızın kənarlarını kəsməyin.
**28**Ölülərə görə bədəninizə yara vurma-
yın, bədəninizə heç bir şəkil döydür-
məyin. Allahınız Rəbb Mənəm.

**29**Qoy heç kim qızını fahişəlik edib
ləkələnməyə qoymasın. Qoy fahişəlik
ölkəyə yayılmasın ki, ölkə əxlaqsızlıqla
dolub daşmasın. **30**Şənbə istirahət
günlərimə riayət edin və Müqəddəs
məkanıma ehtiramla yanaşın. Rəbb
Mənəm.

**31**Cindarlara və ruh çağıranlara
tərəf dönməyin, onlarla danışmayın,
yoxsa murdarlanarsınız. Allahınız
Rəbb Mənəm.

**32**Yaşlıların qarşısında ayağa
durun, ağsaqqallara hörmət eləyin.
Allahınızdan qorxun. Rəbb Mənəm.
**33**Sizinlə ölkənizdə yaşayan heç bir
qəribə haqsızlıq etməyin. **34**Hamınız
onu öz adamınız, yerliniz kimi qəbul
edin, hər kəs onu özünü sevən kimi
sevsin. Çünki siz özünüz də Misir
ölkəsində qərib idiniz. Allahınız Rəbb
Mənəm.

**35**Məhkəmədə, ölçüdə, çəkidə və
miqdarda haqsızlıq etməyin. **36**Qoy
tərəziniz, çəki daşınız, taxıl və maye
ölçüsü üçün işlənən qablarınız düzgün
olsun. Sizi Misir torpağından çıxaran
Allahınız Rəbb Mənəm. **37**Bütün
Mənim qaydalarıma və hökmlərimə
səylə əməl edin. Rəbb Mənəm”».

### *İtaətsizliyə görə cəza*

20 **1**Rəbb Musaya dedi: **2**«İsrail
övladlarına de: “İsraillilərdən
və İsraildə yaşayan yadellilərdən
övladını Molekə təqdim edən hər kəs
öldürülməlidir. Qoy ölkə xalqı onu
daşqalaq etsin. **3**Öz övladını Molekə
təqdim etdiyi üçün Mən o adamdan üz
döndərib xalqı arasından qovacağam;
çünki o, Müqəddəs məkanımı mur-
darlayıb müqəddəs adımı ləkələmişdir.
**4**Əgər ölkə xalqı o adamın övladını
Molekə təqdim etdiyini görüb göz
yumaraq onu öldürməsə, **5**Mən Özüm
həmin adamdan və ailəsindən üz
döndərib onu və onunla birgə Moleklə
Mənə xəyanət edən hər kəsi xalqın
arasından qovacağam.

**6**Mənə xəyanət edərək cindarlara və
ruh çağıranlara tərəf dönən hər kəsdən
üz döndərib xalqın arasından qova-

---

**19:26** – [1] *Yar. 9:4; Lev. 7:26-27; 17:10-14; Qanun. 12:16,23-25; 15:23;* [2] *Qanun. 18:10*
**19:27-28** *Lev. 21:5; Qanun. 14:1* **19:29** *Qanun. 23:17* **19:30** *Lev. 26:2*
**19:31** *Qanun. 18:11; 1Şam. 28:3; 2Pad. 23:4; Yeş. 8:19* **19:33-34** *Çıx. 22:21;*
**19:33-34** *Qanun. 24:17-18; 27:19* **19:35-36** *Qanun. 25:13-16; Sül. 20:10; Yez. 45:10*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 140



cağam. 7Buna görə də özünüzü təqdis
edin və müqəddəs olun, çünki Alla-
hınız Rəbb Mənəm. 8Qaydalarıma
səylə əməl edin, çünki sizi təqdis edən
Rəbb Mənəm.

9Atasına yaxud anasına lənət edən
hər kəs öldürülməlidir. O adam öz
atasına yaxud anasına lənət etdiyi
üçün qanının tökülməyinə özü baisdir.

10Başqa kişinin arvadı ilə zina
edənlərə aid: qonşusunun arvadı ilə
zina edən kişi zinakar qadınla birlikdə
öldürülməlidir. 11Atasının arvadı ilə
yaxınlıq edən kişi atasının namusunu
tapdalamış olur. Bunu edənlərin hər
ikisi öldürülməlidir. Onlar qanlarının
tökülməyinə özləri baisdir. 12Gəlini ilə
yaxınlıq edən kişi gəlini ilə birgə – hər
ikisi öldürülməlidir, çünki bu rəzil-
likdir. Bunlar qanlarının tökülməyinə
özləri baisdir. 13Kişi qadınla yaxınlıq
etdiyi kimi kişi kişi ilə yaxınlıq edərsə,
hər ikisi iyrənc iş görür və onlar
öldürülməlidirlər; qanlarının tökülmə-
yinə özləri baisdir. 14Qadınla bərabər
anasını arvad alan kişi əxlaqsızlıq
edər; aranızda belə əxlaqsızlıq olma-
maq üçün o kişi də, o qadınlar da
yandırılsın. 15Heyvanla cinsi əlaqəyə
girən kişi öldürülməlidir; heyvan isə
kəsilməlidir. 16Hər hansı bir heyvanla
cinsi əlaqəyə girən qadın heyvanla
birgə öldürülməlidir. Bunlar qanları-
nın tökülməyinə özləri baisdir.

17Əgər bir kişi atabir yaxud anabir
bacısını alıb onunla cinsi əlaqədə olsa,
qadın da onunla cinsi əlaqədə olsa, bu,
rüsvayçılıqdır. Onlar xalqı arasından
qovulsun. Bacısı ilə cinsi əlaqədə olan
kişi cəzasını çəkər. 18Əgər bir kişi
aybaşı olan qadınla yaxınlıq edib
onunla cinsi əlaqədə olarsa, qadının
qanaxma mənbəyinin üstünü açar,
qadın da öz qanaxma mənbəyinin
üstünü açar. Hər ikisi xalqı arasından
qovulsun. 19Xalanla yaxud bibinlə
yaxınlıq etmə, çünki yaxın qohumları
ilə yaxınlıq edənlər cəzasını çəkərlər.
20Əmisi arvadı ilə yaxınlıq edən kişi öz
əmisinin namusunu tapdalamış olur;
ikisi də günahının cəzasını çəkərək
övladları olmadan öləcəklər. 21Qar-
daşı arvadını alan kişi qardaşının
namusunu tapdalayaraq murdar iş
görür; onlar sonsuz qalacaqlar.

22Siz Mənim qaydalarıma və hökm-
lərimə səylə əməl edin ki, yaşamaq
üçün aparacağım torpaq sizi rədd
etməsin. 23Qarşınızdan qovacağım
millətlərin adətlərinə uymayın; onlar
bütün bu şeyləri etdiklərinə görə
Mənim gözümdə iyrəncdirlər. 24Mən
sizə dedim ki, onların torpağına siz
sahib olacaqsınız; Mən o süd və bal
axan torpağı sizə irs olaraq verəcəyəm.
Sizi digər xalqlardan ayıran Allahınız
Rəbb Mənəm. 25Beləliklə, siz pak və
murdar heyvan və quşları bir-birindən
ayırd edin. Sizin üçün ayırd etdiyim
murdar sayılan heyvanlar yaxud quş-
lar ya da yerdə sürünən məxluqlarla
özünüzü iyrənc etməyin. 26Siz Mənim
üçün müqəddəs olun, çünki Mən Rəbb
müqəddəsəm. Mən sizi digər xalqlar-
dan ayırdım ki, siz Mənim xalqım
olasınız.

27Cindar yaxud ruh çağıran kişilər
və ya qadınlar öldürülməlidir, onlar
daşqalaq olmalıdır. Bunlar qanlarının
tökülməyinə özləri baisdir”».

---

**20:9** *Çıx. 21:17; Mat. 15:4; Mark 7:10* **20:10** *Çıx. 20:14; Lev. 18:20; Qanun. 5:18*
**20:11** *Lev. 18:8; Qanun. 22:30; 27:20; 1Kor. 5:1* **20:12** *Lev. 18:15* **20:13** *Lev. 18:22*
**20:14** *Lev. 18:17; Qanun. 27:23* **20:15-16** *Çıx. 22:19; Lev. 18:23; Qanun. 27:21*
**20:17** *Lev. 18:9; Qanun. 27:22* **20:18** *Lev. 18:19* **20:19-20** *Lev. 18:12-14* **20:21** *Lev. 18:16*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 141



### *Kahinlərə aid qanunlar*

**21** 1Rəbb Musaya dedi: «Harun nəslindən olan kahinlərə bəyan edib belə de: "Qoy kahinlər öz xalqı arasından olan hər hansı bir meyitə görə özlərini murdar etməsin; 2ancaq kahinin yaxın qohumu – anası, atası, oğlu, qızı, qardaşı 3yaxud da yanında yaşayan subay bacısı ölsə, kahin o ölüyə görə özünü murdar etməsin. 4Qoy o, xalq arasında başçı olduğuna görə özünü murdar edib ləkələməsin.

5Qoy kahinlər yas tutaraq başının heç bir hissəsini qırxmasın, saqqalının kənarını kəsməsin, bədənlərinə də yara vurmasınlar, 6özlərinin Allahı üçün müqəddəs olsunlar və Onun adını ləkələməsinlər, çünki onlar özlərinin Allahına pay, Rəbb üçün yandırma təqdimi gətirirlər. Buna görə də müqəddəs olsunlar. 7Kahin fahişəni yaxud ləkələnmiş və ya ərindən boşanmış qadını da arvad almasın, çünki kahin Allahı üçün müqəddəsdir. 8Onu müqəddəs say, çünki Allahına gətirilən payı təqdim edən odur; o sənin üçün müqəddəs olsun, çünki Mən – sizi təqdis edən Rəbb müqəddəsəm. 9Fahişəliklə ləkələnən kahin qızı atasını da ləkələdiyinə görə yandırılsın.

10Qohumları üzərində olan başında məsh yağı ilə məsh olunan və müqəddəs geyimləri geyən vəzifəli baş kahin yas tutaraq nə saçını dağıtsın, nə də əynindəki geyimini cırsın. 11Bu kahin heç bir meyitə, hətta ölən ata-anasına yaxınlaşıb özünü murdar etməsin. 12O, Müqəddəs məkanı tərk etməsin və Allahın Müqəddəs məkanını ləkələməsin, çünki Allahın nişanəsi olan məsh yağı üzərindədir. Rəbb Mənəm. 13Bu kahin bakirə qız alsın; 14dul, boşanmış yaxud fahişəliklə ləkələnmiş qadın yox, yalnız öz xalqından olan bakirə qız alsın ki, 15onun övladları xalqı arasında ləkəli olmasın. Onu təqdis edən Rəbb Mənəm"».

16Rəbb Musaya dedi: 17«Haruna belə söylə: "Nəsildən-nəslə övladlarından qüsuru olan adam Allahına pay təqdim etmək üçün yaxınlaşmasın. 18Bunlardan heç biri bu xidmətə yaxınlaşmasın: nə kor, nə axsaq, nə eybəcər, nə əlil, 19nə əl-ayağından şikəst, 20nə qozbel, nə cırtdanboy, nə gözündə titə olan, nə xoralı yaxud dəmrovlu, nə axtalanmış adam, 21yəni kahin Harunun nəslindən bədənində hər hansı bir qüsuru olan şəxs Rəbb üçün yandırma təqdimi verməyə yaxınlaşmasın. Onun bədənində qüsur var. Buna görə də o, Allahına pay gətirmək üçün yaxınlaşmasın. 22Belə adam Allahına gətirilən paydan – həm ən müqəddəs yeməkdən, həm də müqəddəs yeməkdən yeyə bilər. 23Lakin o, bədənində qüsuru olduğuna görə nə müqəddəs pərdəyə, nə də qurbangaha yaxınlaşmasın ki, Müqəddəs məkanlarımı ləkələməsin, çünki onları təqdis edən Rəbb Mənəm"».

24Musa Harunla oğullarına və bütün İsrail övladlarına belə dedi.

### *Təqdimlərin və qurbanların müqəddəsliyi*

**22** 1Rəbb Musaya dedi: 2«Harunla oğullarına söylə ki, İsrail övladlarının Mənim üçün təqdis etdikləri müqəddəs şeylərlə ehtiyatlı olsunlar və müqəddəs adımı ləkələməsinlər. Rəbb Mənəm. 3Onlara de: "Nəsildən-nəslə İsrail övladlarının Rəbb üçün

**21:3** *Yez. 44:25* **21:5** *Lev. 19:27-28; Qanun. 14:1* **21:14** *Yez. 44:22*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 142



təqdis etdikləri müqəddəs şeylərə murdar halda yaxınlaşan hər hansı bir övladınız Mənim hüzurumdan qovulsun. Rəbb Mənəm.

**4**Harun nəslindən iyrənc dəri xəstəliyi yaxud xəstəliyə görə bədən axıntısı olan heç kəs pak olana qədər müqəddəs yeməkdən yeməsin. Meyitə görə murdar olan şeyə toxunan hər kəs, toxumu tökülən hər kəs, **5**onu murdarlayan qaynaşan heyvana və yaxud hər cür murdarlığı olan insana toxunan hər kəs də – **6**belə şeylərə toxunan hər adam axşamadək bədənini yumayınca murdar sayılsın və müqəddəs yeməkdən yeməsin. **7**Günəş batanda isə o adam pak sayılsın, sonra müqəddəs yeməkdən yesin, çünki bu onun xörəyidir. **8**Murdarlanmamaq üçün kahin nə təbii yolla ölən, nə də parçalanıb ölən heyvanın ətini yesin. Rəbb Mənəm. **9**Mənim buyruğuma riayət etsinlər ki, onu ləkələdikləri üçün günahının cəzasını çəkərək ölməsinlər. Onları təqdis edən Rəbb Mənəm.

**10**Heç bir kənar şəxs: nə kahinin qonağı, nə də onun muzdlu işçisi müqəddəs yeməkdən yeməsin. **11**Lakin kahinin satın aldığı ya da evində doğulan qul o yeməkdən yeyə bilər. **12**Kənar adama ərə gedən kahin qızı müqəddəs təqdim yeməyindən yeməsin. **13**Amma dul qalmış və ya boşanmış, sonsuz qalaraq atasının evinə qayıdıb ailə üzvü kimi yaşayan kahin qızı atasının yeməyindən yeyə bilər. Lakin heç bir kənar şəxs ondan yeyə bilməz. **14**Bilmədən müqəddəs yeməkdən yeyən adam beşdə birini əlavə edərək əvəzini kahinə qaytarsın. **15**Qoy kahinlər İsrail övladlarının Rəbbə təqdim etdikləri müqəddəs yeməyi ləkələməsinlər. **16**Onlara bu müqəddəs yeməyi verib bunun təqsirini və cəzasını boyunlarına qoymasınlar; çünki onları təqdis edən Rəbb Mənəm”».

**17**Rəbb Musaya dedi: **18**«Harunla oğullarına və bütün İsraillilərə belə de: “İsrail övladlarından yaxud İsraildə yaşayan yadellilərdən kimsənin yandırma qurbanı olaraq Rəbbə təqdim etdiyi hər əhdə görə təqdim və hər könüllü təqdim **19**sizdən qəbul olunsun deyə ya mal-qaradan ya da qoyun-keçidən qüsursuz erkək olsun. **20**Qüsurlu heyvanı gətirmək olmaz, çünki belə qurban sizdən qəbul olunmaz. **21**Kimsə Rəbbə əhdini ödəmək üçün yaxud könüllü təqdim olaraq mal-qaradan ya da qoyun-keçidən ünsiyyət qurbanı təqdim edərsə, heyvan qəbul olunsun deyə qüsursuz olsun; onun bədənində heç bir qüsur olmasın. **22**Rəbbə kor, yaralı, şikəst, qaysaqlı, xoralı, dəmrovlu heyvanları təqdim etməyin, Rəbb üçün yandırma təqdimi vermək üçün onları qurbangaha gətirməyin. **23**Mal-qaradan yaxud qoyun-keçidən çolaq yaxud qısaqıç heyvanı könüllü təqdim etmək olar, lakin əhdini ödəmək üçün o qəbul olunmaz. **24**Xayası zədələnmiş, əzilmiş, burulmuş ya da kəsilmiş heyvanı Rəbbə qurban gətirməyin, ölkənizdə buna yol verməyin. **25**Belə bir heyvanı yadellidən götürüb pay olaraq Allahınıza təqdim etməyin, çünki bu heyvan xarab və qüsurlu sayılaraq sizdən qəbul olunmaz”».

**26**Rəbb Musaya dedi: **27**«Buzov, quzu ya da oğlaq doğularsa, yeddi gün anasının yanında qalsın. Səkkizinci

**22:20** *Qanun. 17:1*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 143



gündən etibarən Rəbb üçün yandırma
təqdimi kimi qəbul oluna bilər. 28Nə
inək, nə qoyun, nə də keçi ilə balasını
eyni gündə birlikdə kəsməyin. 29Rəbbə
təşəkkür qurbanı gətirəndə elə gətirin
ki, o sizdən Rəbbə məqbul olsun.
30Qurbanın əti həmin gün yeyilsin,
səhərə qədər saxlanılmasın. Rəbb Mə-
nəm.

31Mənim əmrlərimə səylə əməl edin.
Rəbb Mənəm. 32Mənim müqəddəs
adımı ləkələməyin. Qoy İsrail övlad-
ları arasında müqəddəs tutulum. Sizi
təqdis edən Rəbb Mənəm. 33Allahınız
olmaq üçün sizi Misir torpağından
çıxartdım. Rəbb Mənəm».

### *Rəbbin bayramları*

23 1Rəbb Musaya dedi: 2«İsrail
övladlarına belə de: "Rəbbin
təyin etdiyi bayramlar, Mənim bay-
ramlarım bunlardır. Bu vaxt müqəd-
dəs toplantı çağırın:

### *Şənbə istirahət günü*

3Altı gün işinizi görün, yeddinci gün
isə Şənbə istirahət və müqəddəs top-
lantı günüdür. Qoy Rəbbin bu Şənbə
günü yaşadığınız bütün yerlərdə heç
bir iş görülməsin.

### *Pasxa və Mayasız Çörək bayramları*

*(Çıx. 12:14-20; Say. 28:16-25; Qanun. 16:1-8)*

4Rəbbin təyin etdiyi bu müqəddəs
toplantı günlərini bayramlar elan edin.

5Birinci ayın on dördü axşamçağı
Rəbbin Pasxa bayramıdır. 6Həmin
ayın on beşi Rəbbin Mayasız Çörək
bayramıdır. Yeddi gün mayasız çörək
yeyin. 7Birinci gün müqəddəs toplan-
tınız olsun; gündəlik işlərinizi görmə-
yin. 8Bu yeddi gün ərzində Rəbb üçün
yandırma təqdimi gətirin. Yeddinci
gün isə müqəddəs toplantınız olsun;
gündəlik işlərinizi görməyin"».

### *İlk dərzin həsr olunması bayramı*

9Rəbb Musaya belə dedi: 10«İsrail
övladlarına de: "Sizə verəcəyim tor-
pağa gəldiyiniz zaman məhsulunuzu
biçəndə biçdiyiniz ilk dərzi kahinin
yanına gətirin. 11O, dərzi Rəbbin hü-
zurunda yellədərək təqdim etsin ki,
sizdən qəbul olunsun. Kahin onu
Şənbənin ertəsi günü yellətsin. 12Dərzi
yellətdiyiniz gün Rəbbə birillik qü-
sursuz erkək toğlu yandırma qurbanı
kimi kəsin. 13Toğlu ilə birlikdə taxıl
təqdimi olaraq zeytun yağı ilə yoğ-
rulmuş bir efanın onda ikisi olan
miqdarda narın un gətirin. Bu, Rəbb
üçün yandırma təqdimi – Onun xo-
şuna gələn ətirdir. İçmə təqdimi olaraq
da bir hin şərabın dörddə birini gə-
tirin. 14Bu qurbanı Allahınıza təqdim
etdiyiniz həmin günə qədər nə çörək,
nə qovurğa, nə də təzə sünbül yeməyin.
Bu bütün yaşadığınız yerlərdə nəsil-
dən-nəslə sizin üçün əbədi qayda
olsun.

### *Biçin bayramı*

*(Say. 28:26-31; Qanun. 16:9-12)*

15Şənbənin ertəsi günü olan yel-
lədilən dərzi gətirdiyiniz gündən tam
yeddi həftə, 16yeddinci Şənbə gününün
ertəsinədək əlli gün sayın, sonra Rəbbə
təzə taxıl təqdimi gətirin. 17Yaşadığı-
nız hər yerdən yellədib təqdim etmək
üçün bir efanın onda ikisi narın undan
maya ilə bişirilmiş iki kömbə çörəyi
Rəbbə nübar təqdimi gətirin. 18Çörək-

---

**23:3** *Çıx. 20:8-10; 23:12; 31:15; 34:21; 35:2; Qanun. 5:12-14* **23:5** *Çıx. 12:1-13; Qanun. 16:1-2*
**23:15-21** *Çıx. 23:16; 34:22*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 144



lə birgə birillik yeddi qüsursuz toğlu,
bir buğa və iki qoç təqdim edin.
Bunlar taxıl təqdimləri və içmə təq-
dimləri ilə birlikdə Rəbb üçün yandır-
ma qurbanıdır, Rəbbin xoşuna gələn
ətir – yandırma təqdimidir. 19Günah
qurbanı üçün bir təkə, ünsiyyət qur-
banı üçün isə iki birillik toğlu gətirin.
20Kahin bu iki toğlunu nübar çörəyi
ilə birgə Rəbbin hüzurunda yellədərək
təqdim etsin. Bunlar kahinin Rəbb
üçün müqəddəs payı olsun. 21Həmin
gün özünüz üçün müqəddəs toplantı
elan edin və heç bir gündəlik iş gör-
məyin. Bu bütün yaşadığınız yerlərdə
nəsildən-nəslə sizin üçün əbədi qayda
olsun.

22Torpağınızda məhsul biçəndə tar-
lanın qıraqlarını biçməyin və biçindən
düşən başaqları yığmayın. Qoy qalan
məhsul kasıblara və qəriblərə qalsın.
Allahınız Rəbb Mənəm"».

### *Şeypur çalınma günü*

*(Say. 29:1-6)*

23Rəbb Musaya dedi: 24«İsrail
övladlarına belə de: "Yeddinci ayın
birinci günü sizin üçün istirahət günü,
şeypur çalınma ilə qeyd olunan gün,
müqəddəs toplantı günü olsun. 25O
gün heç bir gündəlik iş görməyin və
Rəbb üçün yandırma təqdimi gəti-
rin"».

### *Kəffarə günü*

*(Lev. 16:2-34; Say. 29:7-11)*

26Rəbb Musaya dedi: 27«İsrail
övladlarına de: "Yeddinci ayın onu isə
Kəffarə günüdür, müqəddəs toplantı-
nız olsun; özünüzü hər şeydən məhrum
edin və Rəbb üçün yandırma təqdimi
gətirin. 28Həmin gün heç bir iş gör-
məyin, çünki bu, Allahınız Rəbbin
hüzurunda sizin üçün kəffarə edilən
Kəffarə günüdür. 29Həmin o gün
özünü hər şeydən məhrum etməyən
adam xalqı arasından qovulsun. 30O
gün hər hansı bir iş görən adamı Mən
xalqı arasından yox edəcəyəm. 31Heç
bir iş görməyin. Bu bütün yaşadığınız
yerlərdə nəsildən-nəslə sizin üçün
əbədi qayda olsun. 32O gün sizin üçün
Şənbə istirahət günü kimidir. Özünüzü
hər şeydən məhrum edin. Ayın doq-
quzuncu günü axşamdan ertəsi günün
axşamına qədər Şənbə günü kimi is-
tirahət edin"».

### *Çardaqlar bayramı*

*(Say. 29:12-40; Qanun. 16:13-17)*

33Rəbb Musaya dedi: 34«İsrail öv-
ladlarına söylə: "Həmin yeddinci ayın
on beşinci günündən Rəbb üçün yeddi
gün Çardaqlar bayramını keçirin.
35Birinci gün müqəddəs toplantı
günüdür. Gündəlik işlərinizi görməyin.
36Bu yeddi gün ərzində Rəbbə yan-
dırma təqdimləri gətirin. Səkkizinci
gün isə müqəddəs toplantınız olsun və
Rəbbə yandırma təqdimləri gətirin. Bu
gün təntənəli toplantı günüdür, gün-
dəlik işlərinizi görməyin.

37Bunlar Rəbbin təyin etdiyi bay-
ramlardır: bu zaman müqəddəs top-
lantı çağırıb hər birini öz günündə
olmaqla yandırma təqdimlərini – yan-
dırma qurbanlarını, taxıl təqdimlərini,
ünsiyyət qurbanlarını və içmə təq-
dimlərini Rəbbə gətirin. 38Bunlar
Rəbbin Şənbələrinə və Rəbbə ver-
diyiniz bütün ianələrə, bütün əhdlərin
ödəmələrinə, bütün könüllü təqdimlərə
əlavədir.

39Üstəlik yeddinci ayın on beşinci

**23:22** *Lev. 19:9-10; Qanun. 24:19-22* **23:27** *Lev. 16:29-34; Say. 29:7* **23:34-36** *Say. 29:12,35*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 145



günü torpağın məhsullarını yığandan sonra yeddi gün Rəbb üçün bayram keçirin. Birinci gün və səkkizinci gün istirahət günləri olsun. **40**Birinci gün gözəl ağacların meyvələrini, xurma ağaclarının budaqlarını, sıx yarpaqlı ağacların və çay kənarında bitən qovaq ağaclarının budaqlarını toplayıb Allahınız Rəbbin hüzurunda yeddi gün şənlik edin. **41**Hər il Rəbb üçün bu bayramı yeddi gün keçirin. Bu, nəsildən-nəslə sizin üçün əbədi qaydadır; bu bayramı yeddinci ayda qeyd edin. **42**Yeddi gün çardaqlarda qalın; bütün yerli İsraillilər çardaqlarda yaşasın. **43**Beləliklə, sizin nəsilləriniz bilsin ki, Mən İsrail övladlarını Misir torpağından çıxarandan sonra onları çardaqlarda yerləşdirdim. Allahınız Rəbb Mənəm"».

**44**Beləcə Musa İsrail övladlarına Rəbbin təyin etdiyi bayramlar barəsində nəql etdi.

### *Rəbbin hüzurunda yanan çıraq*

*(Çıx. 27:20-21)*

**24** **1**Rəbb Musaya dedi: **2**«İsrail övladlarına əmr et ki, işıq yandırmaq üçün sənə zeytundan çəkilmiş xalis yağ gətirsinlər. Bu yağdan çıraqlar daima **3**Hüzur çadırında, şəhadət pərdəsinin bayır tərəfində yansın. Harun onu hər axşam Rəbbin hüzurunda yandırıb səhərə qədər nəzarət etsin. Bu, nəsildən-nəslə sizin üçün əbədi qayda olsun. **4**Rəbbin hüzurunda xalis qızıldan düzəlmiş çıraqdandakı çıraqlara daim nəzarət edilsin.

### *Təqdis çörəkləri*

**5**Narın un götürüb hər kökə bir efanın onda ikisi qədər miqdarda on iki kökə bişir. **6**Onları Rəbbin hüzurunda xalis qızıldan düzəlmiş masaya, iki sıraya altı-altı qoy. **7**Çörək sıralarının üstünə xalis kündür qoy. Çörəklərin üstündəki kündür Rəbb üçün yandırma təqdimi, çörək yerinə xatirə təqdimi olsun. **8**Qoy bu çörəklər hər Şənbə günü daim Rəbbin hüzurunda düzülsün. Bu, İsrail övladları üçün əbədi əhddir. **9**Bu çörəklər Harunla övladlarının payıdır. Onlar bu çörəkləri müqəddəs bir yerdə yesinlər. Çünki bunlar Rəbb üçün verilən yandırma təqdimlərindən ən müqəddəs, Harun övladları üçün əbədi paydır».

### *Allaha küfr edənin sonu*

**10**Bir gün anası İsrailli, atası Misirli olan bir adam İsrail övladlarının arasına çıxdı. O, düşərgədə bir İsrailli ilə savaşıb **11**Allahın adına küfr və lənət etdi. O adamı Musanın yanına gətirdilər. Onun anası Dan qəbiləsindən Dibri qızı Şelomit idi. **12**O adamı həbs edib Rəbbin qərarını gözlədilər.

**13**Rəbb Musaya belə dedi: **14**«Lənət edəni düşərgədən kənara çıxar; qoy bu lənəti eşidənlər əllərini o adamın başına qoysunlar. Sonra qoy bütün icma onu daşqalaq etsin. **15**İsrail övladlarına belə de: "Allahına lənət edən hər kəs öz günahının cəzasını çəkəcək; **16**Rəbbin adına küfr edən hər kəs öldürülməlidir. Bütün icma onu daşqalaq etsin; istər yadelli, istər yerli olsun, Allahın adına küfr etdiyinə görə öldürülməlidir.

**17**Başqa bir adamın canını alan hər kəs öldürülməlidir. **18**Heyvanı öldürən isə can əvəzinə can olaraq zərəri

---

**23:39-43** *Çıx. 23:16; 34:22* **24:5-6** *Çıx. 25:30* **24:9** *Mat. 12:4; Mark 2:26; Luka 6:4*
**24:17** *Çıx. 21:12*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 146



ödəsin. **19**Bir adam başqa adamı yara-
layarsa, o nə cür edibsə, ona da belə
edilsin: **20**sınıq əvəzinə sınıq, göz əvə-
zinə göz, diş əvəzinə diş; o adama nə
cür yara vurubsa, ona da belə yara
vurulsun. **21**Heyvan öldürən zərərini
ödəsin. Adam öldürən isə özü öldü-
rülsün. **22**Sizdə istər qərib, istər yerli
üçün ədalət bir olsun; çünki Allahınız
Rəbb Mənəm"».

**23**Musa İsrail övladlarına bunu
dedi. Lənət edəni düşərgədən kənara
çıxarıb daşqalaq etdilər. Rəbbin Mu-
saya əmr etdiyi kimi İsrail övladları
buna əməl etdilər.

### *Dinclik ili haqqında*

*(Qanun. 15:1-11)*

**25** **1**Rəbb Sina dağında Musaya
belə söylədi: **2**«İsrail övladla-
rına de: "Sizə verəcəyim torpağa daxil
olanda bütün ölkədə Şənbə günü kimi
Rəbb üçün dinclik vaxtları olsun. **3**Altı
il tarlanı ək, üzümlüyün budaqlarını
kəs və məhsulunu yığ. **4**Yeddinci ildə
isə torpaq Şənbə günü kimi dincə
qoyulsun. Bu, Rəbbin dinclik ilidir.
Bu il sən nə tarlanı ək, nə də üzüm-
lüyünü buda, **5**biçinindən düşən to-
xumdan bitən məhsulu biçmə və kəsil-
məmiş tənəklərdən salxımları yığma.
Bu, torpaq üçün dinclik ili olsun. **6**Bu
dinclik ilində torpağın verdiyi hər
məhsul sizin üçün qida olacaq; qulu-
nuz, qarabaşınız, muzdlu işçiniz, ara-
nızda yaşayan gəlmənin, **7**ev heyvanı-
nın və ölkədəki vəhşi heyvanın qidası
olacaq.

### *Azadlıq ili*

**8**Özün üçün yeddi dinclik ili – yeddi
dəfə yeddi il say. Yeddi dinclik ilinin
müddəti qırx doqquz ildir. **9**Sonra
yeddinci ayın onu – Kəffarə günü
bütün ölkənizdə yüksək səslə şeypur
çaldırmaqla **10**əllinci ili təqdis edin və
ölkənin bütün sakinləri üçün azadlıq
elan edin. Bu il sizin üçün Azadlıq ili
olsun; hamı öz mülkünə, öz ailəsinə
qayıtsın. **11**Qoy əllinci il sizin üçün
Azadlıq ili olsun. O il heç nə əkməyin,
düşən toxumdan bitən məhsulu biç-
məyin, budanmamış meynələrinizdən
yığmayın, **12**çünki bu Azadlıq ili sizin
üçün müqəddəs olsun. Tarlalarınızın
verdiyi məhsulu yeyin.

**13**Bu Azadlıq ilində hər kəs öz mül-
künə qayıtsın. **14**Kim torpaq sahəsini
başqa adama satarsa, ondan alan
soydaşına haqsızlıq etməsin. **15**Alan
şəxs Azadlıq ilindən neçə il keçməsinə
görə qiymətləndirib alsın. Satan isə
məhsul götürəcəyi illərə münasib ola-
raq satsın. **16**İllərin sayı çoxdursa,
qiyməti qaldır, azdırsa, onu endir,
çünki o sənə satılan məhsulların miq-
darıdır. **17**Bir-birinizə qarşı haqsızlıq
etməyin, amma Allahınızdan qorxun,
çünki Rəbbiniz Allah Mənəm.

**18**Mənim qaydalarıma əməl edin,
hökmlərimə səylə riayət edin ki, ölkədə
arxayın yaşayasınız. **19**Torpaq da barı-
nı verəcək ki, siz doyunca yeyib orada
sakit yaşayasınız. **20**‹Məhsul əkib-
biçmədiyimiz yeddinci ildə nə yeyək?›
soruşanda bilin: **21**altıncı il üstünüzə
elə bərəkət göndərəcəyəm ki, torpaq
üçillik məhsul verəcək. **22**Səkkizinci il
əkin və köhnə məhsuldan yeyin; doq-
quzuncu il təzə məhsul yetişənə qədər
köhnəni yeyin.

**23**Torpaq əbədi olaraq satılmaz;
çünki torpaq Mənimdir, siz isə ya-
nımda qərib və gəlməsiniz. **24**Bütün

---

**24:20** *Çıx. 21:23-25; Qanun. 19:21; Mat. 5:38* **24:22** *Say. 15:16* **25:1-7** *Çıx. 23:10-11*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 147



mülkünüzdən sahə satanda onu geri
satınalma hüququnu saxlayın.

**25**Yanındakı soydaşın yoxsullaşıb
mülkündən bir sahə satılmalıdırsa,
onun yaxın qohumu o sahəni geri
satın ala bilər. **26**Geri satın alan qo-
humu yoxdursa, o soydaş sonra gücü
çatan geri satınalma məbləği tapsa,
**27**qoy satılan vaxtdan neçə illər keç-
diyini hesablasın və qiymətin qalığını
satdığı adama verib yenə öz mülkünə
malik olsun. **28**Əgər gücü çatıb bu
məbləği tapmasa, sahəsi Azadlıq ilinə
qədər onu geri satın alan adama məx-
sus qalsın. Azadlıq ilində isə qayta-
rılsın ki, satan adam yenə öz mülkünə
malik olsun.

**29**Bir adam qalalı şəhərdə olan ya-
şayış evini satarsa, onu geri satınalma
hüququ satdığı gündən bir il müddə-
tinə qüvvədədir; satan adam evi geri
satın ala bilər. **30**Amma əgər bütöv il
tamamlananacan o adam evi geri satın
ala bilməsə, qalalı şəhərdəki ev onu
alana məxsus həmişəlik nəsildən-nəslə
qalsın. Bu, Azadlıq ilində qaytarılmaz.
**31**Ətraf qala divarı olmayan kənd-
lərdəki evlər isə torpaq sahələri kimi
sayılsın; onları geri satınalma hüququ
olsun və Azadlıq ilində qaytarılsın.

**32**Lakin Levililər özlərinə aid şə-
hərlərdə mülklərini satdıqları evləri
daima geri satınalma hüququna malik
olsunlar. **33**Levililərdən birinin mülkü
satdığı və geri satın almadığı şəhər evi
Azadlıq ilində ona qaytarılsın. Çünki
Levililərin şəhərlərindəki evlər onların
İsrail övladları arasındakı irsdir. **34**On-
ların şəhərlərinin ətraf otlaqları isə heç
satılmamalıdır, çünki bunlar Levililə-
rin ayrılmaz mülküdür.

**35**Yanındakı soydaşın yoxsullaşıb
və özünü təmin edə bilmirsə, ona
yardım et. Qoy o sənin yanında yadelli
ya gəlmə kimi yaşasın. **36**Ondan nə
sələm, nə də mənfəət götür. Allahın-
dan qorx və qoy soydaşın sənin ya-
nında yaşaya bilsin. **37**Ona nə sələmlə
pul ver, nə də mənfəətini güdmək üçün
yemək ver. **38**Kənan torpağını sizə
vermək və Allahınız olmaq üçün sizi
Misir torpağından çıxaran Allahınız
Rəbb Mənəm.

**39**Yanındakı soydaşın yoxsullaşıb
sənə özünü qul kimi satarsa, ona qulun
ağır işini gördürmə. **40**Qoy o, yanında
muzdlu işçi yaxud gəlmə kimi olsun.
O, Azadlıq ilinədək yanında işləsin,
**41**sonra uşaqları ilə birlikdə səndən
ayrılıb ailəsinin yanına, atalarının
mülkünə qayıtsın. **42**Çünki İsrail öv-
ladları Mənim Misir torpağından çı-
xartdığım qullarımdır, buna görə də
onlar qul kimi satılmasınlar. **43**O
soydaşına sərt ağalıq etmə. Allahın-
dan qorx.

**44**Qullarınız və kənizləriniz ətrafı-
nızdakı millətlərdən olsun. Siz onlar-
dan nökər və qarabaş geri satın ala
bilərsiniz. **45**Aranızda yaşayan gəlmə-
lərdən və onların ölkənizdə doğulmuş
ailə üzvlərindən də geri satın ala
bilərsiniz. Bunlar sizin mülkiyyətiniz
olacaq. **46**Siz özünüzdən sonra bunları
oğullarınıza əmlak kimi vəsiyyət edə
bilərsiniz və onlar oğullarınızın mirası
olub həyatı boyunca iş görəcəklər.
Ancaq İsrailli soydaşlarınız arasında
heç kim soydaşına sərt ağalıq etməsin.

**47**Yanındakı soydaşın yoxsulla-
şıbsa, qonşuluqda yaşayan pulu olan
bir yadelli ya da gəlməyə yaxud onun
ailə üzvünə özünü qul olaraq satarsa,
**48**satıldıqdan sonra onun geri satınal-

---

**25:35** *Qanun. 15:7-8* **25:37** *Çıx. 22:25; Qanun. 23:19-20* **25:39-46** *Çıx. 21:2-6; Qanun. 15:12-18*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 148



ma hüququ var. Qardaşlarından biri
onu geri satın ala bilər; 49əmisi ya da
əmisi oğlu da onu geri satın ala bilər.
Ailəsindən hər bir yaxın qohumu da
onu geri satın ala bilər. Öz gücü
çatanda o adam özünü geri satın ala
bilər. 50Qoy bu adam ağası ilə özünü
satdığı ildən Azadlıq ilinə qədər
muzdlu işçinin iş müddəti kimi hesab-
laşsın və illərin sayına görə qiyməti
qoyulsun. 51Əgər illərin sayı hələ də
çoxdursa, o buna görə geri satınalın-
manın qiyməti olaraq satın alındığı
məbləğin böyük bir hissəsini ödəsin.
52Lakin əgər Azadlıq ilinə az qalırsa, o
müddətə görə hesab edərək geri sa-
tınalınmanın qiyməti olaraq az ödəsin.
53Yəni ilbəil muzdlu işçi kimi ağası ilə
hesablaşsın. Qoy ağası da sənin gözün
qarşısında ona sərt ağalıq etməsin.
54Əgər o adam bu yolla geri satın alın-
mamışdırsa, Azadlıq ilində uşaqları ilə
birgə azad olsun. 55Çünki İsrail öv-
ladları Mənim qullarım, Mənim Misir
torpağından çıxardığım qullarımdır.
Allahınız Rəbb Mənəm.

### *Allaha itaətin bərəkətləri*

*(Qanun. 7:12-24; 28:1-14)*

26 1Özünüzə büt düzəltməyin;[1]
oyma büt yaxud sütun qoyma-
yın,[2] ölkənizdə yonulmuş daş qoyub
səcdə etməyin; çünki Allahınız Rəbb
Mənəm. 2Şənbə istirahət günlərimə
riayət edin, Müqəddəs məkanıma eh-
tiramla yanaşın. Rəbb Mənəm.

3Əgər qaydalarımla yaşayıb əmrlə-
rimə səylə əməl etsəniz, 4sizə mövsü-
mündə yağış göndərəcəyəm ki, torpaq
öz məhsulunu, ağaclar isə meyvələrini
versin. 5Sizin xırmanınız o qədər bol
olacaq ki, onun döyülməsi üzüm yığı-
mına qədər davam edəcək, üzümünüz
o qədər bol olacaq ki, onun yığılması
əkin vaxtına qədər davam edəcək.
Çörəyinizi doyunca yeyib ölkənizdə
arxayın yaşayacaqsınız.

6Ölkənizə sülh verəcəyəm; yatanda
sizi vahiməyə salan olmayacaq. Yırtıcı
heyvanları ölkədən qovacağam və
müharibə üzü görməyəcəksiniz. 7Düş-
mənlərinizi qovacaqsınız, onlar döyüş
zamanı qarşınızda həlak olacaqlar.
8Beşiniz yüz adamı, yüzünüz on min
adamı qovacaq. Düşmənləriniz döyüş
zamanı qarşınızda həlak olacaqlar.
9Mən üzümü sizə çevirəcəyəm, sizi
artırıb çoxaldacağam, sizinlə olan Öz
əhdimi yerinə yetirəcəyəm. 10Sax-
ladığınız məhsul bütün il boyu sizə
çatacaq. Yeni məhsula yer tapmaq
üçün köhnəni boşaltmalı olacaqsınız.
11Üstəlik, Mən aranızda məskunla-
şacağam və sizə nifrət etməyəcəyəm.
12Mən həm də aranızda yaşayıb sizin
Allahınız olacağam, siz isə Mənim xal-
qım olacaqsınız. 13Sizi Misir torpağın-
dan çıxardan və onların köləliyindən
azad edən, boyunduruğunuzu qırıb
başınızı uca edən Allahınız Rəbb
Mənəm.

### *Allahdan uzaqlaşmanın cəzası*

*(Qanun. 28:15-68)*

14Amma əgər Mənə qulaq asıb
bütün bu əmrlərimə əməl etməsəniz,
15əvəzində qaydalarıma xor baxıb
hökmlərimi qəlbinizdən rədd etsəniz,
Mənim bütün əmrlərimə əməl etməyib,
əhdimi pozsanız, 16Mən sizə bunu
edəcəyəm: göz çıxaran və qəlbi sıxan
fəlakət, vərəm, qızdırma göndərə-

**26:1** – [1]*Lev. 19:4;* [2]*Çıx. 20:4; Qanun. 5:8; 16:21-22; 27:1* **26:3-5** *Qanun. 11:13-15*
**26:12** *Yez. 37:27; 2Kor. 6:16; Vəhy 21:3*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 149



cəyəm. Toxumlarınızı hədər yerə
əkəcəksiniz; düşmənləriniz onlardan
əmələ gələn məhsulu yeyəcək. 17Üzü-
mü sizdən döndərəcəyəm, düşmənlə-
rinizin qarşısında məğlub olacaqsınız,
yağılarınız üzərinizdə hökm sürəcək;
sizi qovan olmasa da, qaçacaqsınız.

18Əgər buna baxmayaraq yenə də
Mənə qulaq asmasanız, o vaxt günah-
larınıza görə sizi yeddi qat artıq tənbeh
edəcəyəm. 19Öyündüyünüz güclü tə-
kəbbürünüzü qıracağam. Başınız üzə-
rində olan göyləri dəmir və ayağınız
altındakı yeri tunc kimi edəcəyəm ki,
20qüvvətiniz tükənsin; nə torpağınız
məhsul, nə də ağaclarınız meyvə ve-
rəcək.

21Əgər Mənə qarşı çıxıb sözlərimə
hələ də qulaq asmaq istəməsəniz, Mən
sizə günahlarınıza görə yeddiqat artıq
bəla göndərəcəyəm. 22Üstünüzə vəhşi
heyvanlar göndərəcəyəm. Onlar övlad-
larınızı öldürüb, ev heyvanlarınızı par-
çalayacaq. Buna görə sayınız elə aza-
lacaq ki, yollarınız viran qalacaq.

23Əgər bunlardan ibrət dərsi al-
mayıb Mənə qarşı çıxmaqda davam
etsəniz, 24Mən də sizə qarşı çıxacağam
və günahlarınıza görə yenə də yeddiqat
artıq cəzalandıracağam. 25Əhdi poz-
duğunuza görə qisas almaq üçün
üstünüzə müharibə göndərəcəyəm. Siz
şəhərlərinizdə sığınanda aranıza vəba
salacağam ki, düşmənin əlinə düşəsi-
niz. 26Çörəyinizin kökünü kəsəcəyəm.
On qadın bir təndirdə çörək bişirəcək
və onu sizə çəki ilə paylayacaq, siz isə
yeyib doymayacaqsınız.

27Əgər siz bundan sonra da Mənə
qulaq asmasanız və Mənə qarşı çıx-
sanız, 28bu dəfə Mən də sizə qarşı qə-
zəblə çıxıb günahlarınıza görə yed-
diqat artıq tənbeh edəcəyəm. 29Oğul
və qızlarınızın ətini yeməyə məcbur
olacaqsınız. 30Səcdəgahlarınızı məhv
edib, buxur qurbangahlarınızı yox
edəcəyəm, bütlərinizi devirəcəyəm və
meyitlərinizi o bütlərin üstünə sərə-
cəyəm. Sizi rədd edəcəyəm; 31şəhər-
lərinizi xaraba qoyacağam, Müqəddəs
məkanlarınızı viranəliyə döndərib xoş
ətirlərinizi qəbul etməyəcəyəm. 32Mən
ölkənizi elə viran qoyacağam ki, oranı
işğal edən düşmənləriniz baxıb dəhşətə
gəlsinlər. 33Sizi isə millətlər arasına
səpələyəcəyəm və arxanızca qılıncla
düşəcəyəm. Torpağınız viranəliyə,
şəhərləriniz xarabalığa dönəcək.

34O zaman ölkə viran qalacaq, siz
isə düşmən torpağında yaşayacaqsınız.
Bütün bu vaxt ərzində ölkə dinclik
illərini qeyd edəcək. Yalnız o vaxt ölkə
dinclik illərini qeyd edərək şadlana-
caq. 35Orada yaşadığınız dinclik illə-
rində görmədiyi dincliyi ölkə viran
qalan bütün müddət görəcək. 36Düş-
mən ölkələrində sizdən sağ qalanların
ürəklərinə elə cəsarətsizlik salacağam
ki, onlar hətta küləkdən tərpənən yar-
pağın xışıltısından qorxub qaçacaqlar.
Onları qovan olmasa da, müharibədən
qaçan kimi qaçıb yıxılacaqlar; 37büd-
rəyib bir-birinin üstünə yıxılacaqlar,
amma onları qovan olmayacaq; düş-
mənləriniz qarşısında durmağa qüv-
vətiniz olmayacaq. 38Millətlər arasın-
da həlak olacaqsınız, düşmən torpağı
sizi udacaq. 39Sizdən sağ qalanlarsa
düşmən ölkələrində həm öz günah-
larının cəzasını, həm də atalarının
günahlarının cəzasını çəkib çürüyə-
cəklər.

40Amma özlərinin və atalarının
günahlarını, Mənə xainlik etdiklərini
və Mənə qarşı çıxdıqlarını etiraf
etsələr, 41– buna görə Mən də onlara

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 150



qarşı çıxıb düşmən torpağına aparmışam – daş ürəkləri yumşalıb günahlarının əvəzini ödəsələr, **42**o zaman Mən də Yaqubla,[1] İshaqla[2] və İbrahimlə[3] bağladığım əhdimi və onlara vəd etdiyim ölkəni xatırlayacağam.

**43**Bu torpaq onlar tərəfindən tərk ediləcək, onlarsız boş qalıb Şənbə istirahəti edib şadlanacaq. Onlarsa öz cəzalarını çəkəcəklər, çünki Mənim hökmlərimi rədd edərək qaydalarıma nifrət etdilər. **44**Bütün bunlara baxmayaraq, düşmən ölkəsində yaşadıqları zaman onlara xor baxıb rədd etməyəcəyəm. Beləcə Mən onları məhv edib bağladığım əhdimi pozmayacağam, çünki onların Allahı Rəbb Mənəm. **45**Mən onların əcdadlarını başqa millətlərin qarşısında onların Allahı olmaq üçün Misir torpağından çıxaran vaxt bağladığım əhdimi xatırlayacağam; Rəbb Mənəm”».

**46**Bunlar Rəbbin Özü ilə İsrail övladları arasında Sina dağında Musa vasitəsilə verdiyi qaydalar, hökmlər və qanunlardır.

### *Rəbbə təqdimlərin gətirilməsi*

**27** **1**Rəbb Musaya dedi: **2**«İsrail övladlarına söylə: “İnsanları Rəbbə həsr edən adam əhdini bu dəyərlərinə görə ödəyə bilər: **3**Müqəddəs yerdəki şekelin ölçüsünə görə iyirmi yaşından altmış yaşına qədər kişinin dəyəri əlli şekel gümüş, **4**qadının dəyəri otuz şekeldir; **5**beş yaşından iyirmi yaşına qədər oğlanın dəyəri iyirmi şekel, qızın isə on şekeldir; **6**bir aydan beş yaşa qədər olan oğlanın dəyəri beş şekel gümüş, qızın dəyəri isə üç şekel gümüşdür; **7**altmış yaşından yuxarı olan kişinin dəyəri on beş şekel, qadının isə on şekeldir; **8**əgər əhdinə əməl edən adam belə dəyəri ödəmək üçün çox kasıbdırsa, qoy həsr etdiyi adamı kahinin önünə gətirsin ki, kahin onu qiymətləndirsin. Əhdinə əməl edənin gücü nəyə çatırsa, kahin onun qiymətini təyin etsin.

**9**Əgər bir nəfər Rəbbə qurban gətirilən heyvanlardan birini həsr etsə, bunlardan Rəbbə verilən hər baş heyvan müqəddəs sayılır. **10**O adam heyvanı dəyişdirməsin. Nə pisi yaxşı ilə, nə yaxşını pislə əvəz etməsin. Əgər o, heyvanı dəyişdirirsə, dəyişdirilən heyvanların ikisi də müqəddəs sayılsın. **11**Əgər Rəbbə qurban gətirməyə layiq olmayan hər hansı murdar heyvanlardan birini həsr etsə, qoy o heyvanı kahinin yanına gətirib ona göstərsin; **12**kahin onu yaxşı ya pis olduğuna görə qiymətləndirsin və dəyəri onun təyin etdiyinə görə olsun. **13**Əgər heyvanı həsr edən onu geri satın almaq istəsə, qoy o dəyərinə beşdə biri qədər əlavə edərək ödəsin.

**14**Bir nəfər öz evini müqəddəs təqdim kimi Rəbbə təqdis edəndə kahin evi yaxşı ya pis olduğuna görə qiymətləndirsin. Qiymət kahinin təyin etdiyi kimi qalsın. **15**Əgər o adam evini geri satın almaq istəsə, qoy o qiymətə görə beşdə birini əlavə edərək ödəsin və ev ona qayıtsın.

**16**Əgər bir nəfər mülkü olan tarla sahəsini Rəbbə təqdis edirsə, oraya əkilən toxum miqdarına görə bir xomer arpa əkilən tarlanın qiyməti əlli şekel gümüş olsun. **17**Əgər o adam tarlasını Azadlıq ilindən başlayaraq təqdis edirsə, bu dəyər olduğu kimi qalsın. **18**Əgər tarlasını Azadlıq ilindən sonra təqdis edirsə, kahin onunla

**26:42** – [1] *Yar. 28:13-14;* [2] *Yar. 26:3-4;* [3] *Yar. 17:7-8*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 151



qiymətini sonrakı Azadlıq ilinə qədər
qalan müddətə görə hesablaşsın və
dəyəri belə aşağı salınsın. 19Əgər tar-
lanı təqdis edən adam onu geri satın
almaq istəsə, qoy o, gümüşə görə
dəyərinə beşdə birini əlavə edərək
ödəsin və tarla ona qayıtsın. 20Əgər
tarlanı geri satın almadan başqa birinə
satarsa, sonra onu heç vaxt geri satın
ala bilməz. 21O tarla Azadlıq ilində
azad olanda həmişəlik həsr olunmuş
bir tarla kimi Rəbb üçün təqdis edilmiş
sayılsın; kahinin mülkü olsun.

22Əgər bir nəfər öz mülkü olma-
yaraq, satın aldığı bir tarlanı Rəbbə
təqdis edərsə, 23qoy kahin onunla
Azadlıq ilinə qədər dəyərini hesab-
lasın. O adam həmin gün qiyməti
Rəbb üçün təqdis edilmiş bir şey kimi
versin. 24Azadlıq ilində həmin tarla
mülk olub onu satan adama qaytarıl-
sın. 25Bütün dəyərlər Müqəddəs yerdə-
ki şekelə görə sayılsın. Bu şekel iyirmi
geraya bərabərdir.

26Heyvanlar arasında ilk doğu-
lanlar Rəbbə məxsusdur. Heç kim onu
yenidən təqdis etməsin. İstər mal-qara,
istər qoyun-keçi olsun, onlar Rəb-
bindir. 27Əgər murdar heyvanın balası
olsa, onu gətirən adam ümumi dəyə-
rinə beşdə birini əlavə edərək geri satın
ala bilər. Əgər o geri satın alınmırsa,
dəyərinə satılsın.

28Bir nəfərin öz əmlakından istər
adam, istər heyvan, istər mülkü olan
tarla sahəsi olsun – Rəbb üçün məhv
edilməyə həsr etdiyi hər bir şey nə
satılsın, nə də geri satın alınsın. Məhv
edilməyə həsr olunmuş hər şey Rəbb
üçün ən müqəddəsdir. 29Məhv edil-
məyə həsr olunmuş hər kəs geri satın
alınmamalıdır, hamısı öldürülməlidir.

30Torpağın məhsulundan – onun
verdiyi taxıldan və ağacların meyvə-
sindən bütün onda bir hissə Rəbbə
məxsusdur və Onun üçün təqdis edilib.
31Əgər bir nəfər öz onda bir hissəsini
geri satın almaq istəsə, qoy qiymətinə
beşdə birini əlavə edərək ödəsin.
32Bütün mal-qaradan, qoyun-keçidən
onda bir hissə, sayla çoban dəyənəyi-
nin altından keçən hər onuncu heyvan
Rəbb üçün təqdis edilmiş sayılsın.
33Qoy heyvan sahibi heyvanlara yaxşı
yaxud pis fərq qoyub baxmasın; birini
o biri ilə dəyişdirməsin. Əgər o belə
dəyişdirsə, dəyişdirilən heyvanların
ikisi də müqəddəs sayılıb geri satın
alınmamalıdır”».

34Bu, Rəbbin Musaya İsrail övlad-
ları üçün Sina dağında verdiyi əmrlər-
dir.

---

**27:28** *Say. 18:14* **27:30-33** *Say. 18:21; Qanun. 14:22-29*

Lev Lat:Azeri Bible Cyrillic 25.02.2009 10:45 Page 152